

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 fevral 2026-cı il, cümə
№ 023 (7090)
Qiymәti 60 qəpik


# “Biz sülh şəraitində yaşamağı öyrənirik”...

## Azərbaycan bu mərhələni məsuliyyətlə və uzaqgörənliklə keçir




Bax səh. 2

## Dünyanın ən prestijli mükafatlarından biri Azərbaycanda

Bax səh. 3

### Azərbaycanın liderliyi ilə yaranmış regional düzənə dəstək...

Azərbaycan müharibədən sonrakı dövrdə də qalib dövlət olmasına baxmayaraq özünün sülhpərvər siyasi ənənəsinə sadiq qaldı - Bakı regionda sabitliyin və davamlı...

Bax səh. 2

### Bakı ilə Əbu-Dabi qardaşlaşır



Bax səh. 3

### Sarsılmaz iradə və prinsipiallığın nəticəsi...

Dünyada mövcud olan ikili standartların, beynəlxalq hüquq normalarının işləməməsinin acı təcrübəsini ən çox yaşayan ölkələrdən biri də Azərbaycandır. 1990-cı illərin əvvəlində Ermənistan xarici havadarlarının...

Bax səh. 4

## Liderlərin təbrikləri...

Hidayət

### Ramiz Mehdiyev dedi ki, onun evindəki telefonu kəsin

Bax səh. 5

### Yeni iqtisadi artım proqnozları açıqlanıb

Bax səh. 5

### Ortaq biznes platforması

Bax səh. 6

### Paris sülh siyasətinə qarşı



Bax səh. 7

### “Lizinq haqqında” qanun nəyi və necə dəyişəcək?

Bax səh. 7

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Qardaş Türkiyə Respublikasını dərindən sarsıdan zəlzələdən üç il ötür. Dəhşətli faciə nəticəsində həlak olmuş insanların əziz xatirəsini böyük ehtiram və hörmətlə yad edirəm.

Bu fəlakət Türkiyə üçün ciddi humanitar sınaq oldu. Bir gecədə minlərlə insan həyatını itirdi, bir çox şəhər və yaşayış məntəqələri dağıntıya məruz qaldı. Həmin günlərdə Azərbaycan xalqı baş verənləri dərin ağrı hissi ilə izləyərək qardaş Türkiyənin kədərini öz kədəri kimi qəbul etdi, onun dərdinə şərik çıxdı.

Azərbaycan-Türkiyə münasibətlərinin əsasında duran sarsılmaz qardaşlıq məhz belə çətin məqamda öz real mahiyyətini nümayiş etdirdi. Faciənin ilk anlarından etibarən Azərbaycan dövləti və cəmiyyəti birlik və həmrəylik prinsiplərinə sadiq qalaraq Türkiyənin yanında oldu, dəstək və yardım əlini uzatdı.

Sizin müdrik rəhbərliyiniz altında aparılan güclü dövlət idarəçiliyi və xalqın birliyi sayəsində hazırda Türkiyə zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində mühüm nəticələr əldə etmişdir. Zərər çəkmiş bölgələrdə genişmiqyaslı yenidənqurma işlərinin aparılması, müasir yaşayış infrastrukturunun yaradılması və sosial rifahın bərpası Türkiyənin uzunmüddətli inkişaf strategiyasının bariz göstəricisidir.

Qardaşlıq borcumuzun təzahürü olaraq Azərbaycan Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə vermiş, burada "Azərbaycan" məhəlləsinin salınmasında yaxından iştirak etmişdir. Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.

Əminəm ki, "Bir millət iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə güclü birliyi və strateji müttəfiqliyi bundan sonra da xalqlarımızın firavanlığına töhfə verməklə yanaşı regional sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına xidmət edəcəkdir.

Bu anım günündə Sizə, həlak olanların ailələrinə və bütün qardaş Türkiyə xalqına bir daha dərin hüznlə başsağlığı verir, həyatlarını itirmiş bacı-qardaşlarımıza uca Allahdan rəhmət diləyirəm.

Hörmətlə,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 fevral 2026-cı il**

# "Biz sülh şəraitində yaşamağı öyrənirik"...

ji təhlükəsizliyi sahəsində həyata keçirilən layihələr, beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi təşəbbüslər ölkəmizi etibarlı tərəfdaş kimi tanıtdı.

Bu illərdə Azərbaycan sürətli və dayanıqlı inkişaf yolu keçdiyi halda, Ermənistan faydasız və nəticəsiz işğal siyasətinin girovuna çevrildi. İqtisadi tənəzzül, sosial problemlər və demoqrafik böhran bu ölkənin əsas reallığı oldu. İşğal nə erməni xalqına rifah gətirdi, nə də dövlətçiliyi gücləndirdi. Əksinə, onları regional layihələrdən və inkişaf imkanlarından kənarda qoydu. Bu müqayisə bir daha sübut edir ki, güc yalnız silahda deyil, düzgün strate-








## Azərbaycan bu mərhələni məsuliyyətlə və uzaqgörənliklə keçir

Birinci Qarabağ müharibəsi yeni müstəqilliyini bərpa etmiş Azərbaycanın dövlətçilik yolunda qarşılaşdığı ən ağır və taleyüklü sınaqlardan biri oldu. Müstəqilliyin ilk illərində üzləşdiyimiz hərbi təcavüz, torpaqlarımızın işğalı və bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün həyatına məhkum edilməsi ölkənin həm siyasi, həm iqtisadi, həm də sosial inkişafına ciddi zərbələr vurdu. Son 30 il ərzində Azərbaycanın daxili və xarici siyasətinin əsas prioriteti suverenliyin və ərazi bütövlüyünün bərpası məsələsi oldu.

Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq və sülh yolu ilə həllinə hər zaman sadiq qaldığını nümayiş etdirdi. Danışıqlar prosesində konstruktiv mövqe tutmaqla yanaşı, ölkəmiz paralel şəkildə güclü və peşəkar ordu quruculuğuna da xüsusi önəm verdi. Bu proses təkcə hərbi texnika və silahlanma ilə məhdudlaşmadı, eyni zamanda, milli hərb sənayesinin formalaşdırılması, peşəkar kadr hazırlığı və müasir döyüş təlimlərinin keçirilməsi ilə müşayiət olundu.

Bununla yanaşı, Azərbaycan dövləti ağır sosial yükə baxmayaraq, qaçqın və məcburi köçkünlərin problemlərinin həllini daim diqqət mərkəzində saxladı. Minlərlə yaşayış kompleksi tikildi, sosial infrastruktur yaradıldı, insanların layiqli həyat şəraiti təmin olundu. Ən mühüm məqam isə ondan ibarətdir ki, bütün bu addımlar əsasən Azərbaycanın öz daxili iqtisadi potensialı hesabına reallaşdırıldı. Neft strategiyasından əldə edilən gəlirlərin mühüm bir hissəsi ölkənin müdafiə qabiliyyətinin artırılmasına, sosial rifahın yaxşılaşdırılmasına və dövlətçiliyin möhkəmləndirilməsinə yönəldildi. Beləliklə, Azərbaycan bir tərəfdən müharibənin ağır nəticələrini aradan qaldırmağa çalışdı, digər tərəfdən isə gələcək qələbənin təməlini səbrlə və ardıcıllıqla formalaşdırırdı.

**Qalib dövlət reallığı**

Artıq "Qarabağ münaqişəsi"" anlayışı beynəlxalq siyasi leksikondan çıxıb və tarixə qovuşub. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə tək hərbi qələbə qazanmadı, eyni zamanda, regionda yeni geosiyasi və geoiqtisadi reallıqlar formalaşdırdı. Qalib dövlət statusu Azərbaycana bölgənin gələcəyini müəyyənləşdirən əsas aktor kimi çıxış etmək imkanı verdi.

30 illik müstəqillik dövründə nə Azərbaycan, nə də Ermənistan xalqları sülh şəraitində yaşaya bilməyib. Ermənistanın işğalçılıq siyasəti, torpaqlarımızın talan edilməsi, şəhər və kəndlərin viran qoyulması bütün region üçün uzunmüddətli gərginlik mənbəyinə çevrildi. Buna baxmayaraq, Azərbaycan torpaqları işğal altında olduğu illərdə belə regional və qlobal əhəmiyyətli layihələrə imza atmaqla diqqət çəkdi. Energiyada, iqtisadi müstəqillikdə və siyasi iradədədir. Azərbaycan məhz bu keyfiyyətlər hesabına qalib gəldi və yeni mərhələyə qədəm qoydu.

**Sülh mərhələsi - region üçün yeni perspektivlər**

Azərbaycanın gücü və siyasi iradəsi nəticəsində Cənubi Qafqazda yeni sülh mərhələsi başlayıb. Sülh təkcə müharibənin bitməsi deyil, eyni zamanda, inkişaf, tərəqqi və uzunmüddətli sabitlik üçün əsas şərtdir. Xüsusilə müasir dünyada sülh amili iqtisadi inkişafın, investisiya axınının və regional əməkdaşlığın əsas açarına çevrilib.

Azərbaycan bu reallığı dərindən anlayaraq postmünaqişə dövründə bərpa və quruculuq prosesinə sürətlə start verdi. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələr, infrastrukturun yenidən qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bölgənin gələcək inkişaf modelini müəyyən edir. Bu proses təkcə Azərbaycan üçün deyil, bütün region üçün yeni iqtisadi imkanlar yaradır.

**"Bu, xüsusi bir hissdir"...**

Sülh şəraitində yaşamaq asan deyil - xüsusilə uzun illər müharibə psixologiyası ilə yaşayan cəmiyyətlər üçün. Azərbaycan bu mərhələni məsuliyyətlə və uzaqgörənliklə keçir. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, "Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik".

Qarşıda uzun və perspektivli bir yol var, lakin bu yolun gətirəcəyi dividendlər böyükdür. Sülh regionu qarşıdurma məkanından əməkdaşlıq platformasına çevirə bilər. Azərbaycanın təqdim etdiyi sülh gündəliyi revanşizmə deyil, gələcəyə hesablanıb. Bu yanaşma Cənubi Qafqazın sabit, təhlükəsiz və inkişaf edən bir regiona çevrilməsi üçün real əsas yaradır.

**Əbədi rifahın yeganə yolu**

Beləliklə Azərbaycan Cənubi Qafqaza sülh gətirməklə yeni bir inkişaf mərhələsi yaradıb - erməni işğalına son qoymaqla biz tək öz haqqımızı, hüququmuzu bərpa etmədik, eyni zamanda, Ermənistanı da yanlış və dağıdıcı siyasətin nəticələrindən xilas etmiş olduq. Biz sülhün nə olduğunu təkcə sözlə deyil, real addımlarla Ermənistana da nümayiş etdiririk. Azərbaycanın ortaya qoyduğu model sübut edir ki, güclü dövlət olmaq sülhü təmin etmək bacarığıdır. Bu isə regionun əbədi rifahın yeganə yoludur.

*Pərviz SADAYOĞLU*

# Azərbaycanın liderliyi ilə yaranmış regional düzənə dəstək...

## İlham Əliyev: Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur

Azərbaycan müharibədən sonrakı dövrdə də qalib dövlət olmasına baxmayaraq özünün sülhpərvər siyasi ənənəsinə sadiq qaldı - Bakı regionda sabitliyin və davamlı təhlükəsizliyin bərpası üçün qətiyyətli iradə nümayiş etdirdi. Tarix göstərdi ki, Azərbaycan üçün qələbə revanşizm demək deyil - qələbə yeni bir siyasi reallıq, yeni münasibətlər sistemi və yeni inkişaf mühiti formalaşdırmaq imkanıdır. Məhz bu yanaşmanın məntiqi davamı olaraq 2022-ci ildə Ermənistana sülh təklifinin irəli sürülməsi Cənubi Qafqazda uzun illər davam etmiş qarşıdurma mərhələsinin arxada qalması üçün real əsas yaratdı.

Sülh təşəbbüsü bölgədə sabitliyin möhkəmləndirilməsinə, dövlətlərarası münasibətlərin normallaşmasına və qarşılıqlı etimada əsaslanan yeni siyasi mühitin formalaşmasına hesablanmışdı. Rəsmi Bakı açıq şəkildə bəyan etdi ki, regionun gələcəyi qarşıdurma yox, əməkdaşlıq üzərində qurulmalıdır. İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni reallıq isə Ermənistan üçün də mühüm dərs oldu. Rəsmi İrəvan nəhayət, anladı ki, Azərbaycanın irəli sürdüyü sülh onun üçün məğlubiyyət deyil, əksinə, gələcək inkişaf və regional inteqrasiya baxımından yeganə çıxış yoludur. Beləliklə, Azərbaycanın müəllifi olduğu sülh gündəliyi regionun taleyini dəyişən əsas siyasi xəttə çevrildi.

### Sülh reallığının beynəlxalq təsdiqi

Cənubi Qafqazda formalaşan yeni sülh şəraiti 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşdə özünün siyasi və diplomatik təsdiqini tapdı. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə baş tutan bu görüş regionun gələcəyi baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Görüş zamanı Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması, eləcə də ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı qarşılıqlı razılaşmanın imzalanması artıq köhnəlmiş və nəticəsiz mexanizmlərin tarixə qovuşduğunu göstərdi.

Bu addım iki ölkə arasında münasibətlərin normallaşması ilə yanaşı, bütövlükdə Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. Uzun illər ərzində formal fəaliyyət göstərən, lakin real nəticə ortaya qoya bilməyən Minsk Qrupunun ləğvi regionda yeni və daha effektiv siyasi yanaşmaların ön plana çıxdığını təsdiqlədi.

Vaşinqton görüşü göstərdi ki, Azərbaycan tərəfindən irəli sürülən sülh təşəbbüsləri artıq beynəlxalq müstəvidə də qəbul edilir və dəstəklənir. Bu, Cənubi Qafqazda formalaşan sülh prosesinin lokal deyil, qlobal miqyasda tanınmasının göstəricisidir. Region artıq münaqişə zonası kimi deyil, sabitlik və əməkdaşlıq məkanı kimi qəbul olunmağa başlayır.

### Trampın sülhə dəstəyi...

Bu prosesdə ABŞ-ın, xüsusilə Prezident Donald Trampın rolu ayrıca vurğulanmalıdır. Hakimiyyətə qayıdışından sonra ötən bir il ərzində Tramp administrasiyası Azərbaycanla münasibətlərə xüsusi önəm verərək Cənubi Qafqazda Bakı tərəfindən formalaşdırılan yeni siyasi reallıqları açıq şəkildə dəstəklədi. Bu yanaşma ABŞ-ın regionda sabitliyə, təhlükəsizliyə və praqmatik əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi dəyərləndirilə bilər. Trampın yanaşması klassik vasitəçilik modelindən fərqlənir. Burada əsas prinsip süni balans axtarışı deyil - beynəlxalq hüquq çərçivəsində formalaşmış yeni vəziyyətin qəbul edilməsi və onu yeni imkanlara çevirmə istəyidir. ABŞ-ın Azərbaycanın liderliyi ilə yaranmış regional düzəni dəstəkləməsi sülh prosesinə əlavə legitimlik qazandırır. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxış edən Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə Prezident Donald Trampa minnətdarlıq edib: "O, 2025-ci il avqustun 8-də üçtərəfli Zirvə Görüşünə ev sahibliyi etmişdir. Həmin Zirvə Görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflanmış, həmçinin Birgə Bəyannamə imzalanmışdır. Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur".

Çıxışı zamanı Ermənistanın baş naziri Nikol Paşinyan da ABŞ Prezidenti Donald Trampa sülh sazişinin əldə olunmasına töhfə verdiyinə və bu istiqamətdə səylərini əsirgəmədiyinə görə xüsusi təşəkkürünü bildirib.

Vurğulandığı kimi, bu dəstək region üçün qurulacaq daha geniş və uzunmüddətli gələcəyin siyasi zəmanəti kimi çıxış edir. ABŞ-Azərbaycan əlaqələrinin güclənməsi Cənubi Qafqazı qlobal iqtisadi və nəqliyyat layihələrinin vacib hissəsinə çevirir. Beləliklə, Vaşinqtonun mövqeyi yalnız ikitərəfli münasibətlər kontekstində deyil, bütövlükdə regionun gələcək inkişaf trayektoriyası baxımından strateji əhəmiyyət daşıyır.

### Avrasiya miqyasında yeni rol...

Donald Trampın dəstəyi ilə Zəngəzur dəhlizinin (TRIPP) açılması prosesində əldə olunan mühüm irəliləyiş də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında əsaslı yer tutur. Bu dəhliz təkcə iki ölkə arasında kommunikasiyaların bərpası deyil, eyni zamanda bütün regionun iqtisadi xəritəsini dəyişən strateji layihədir. Zəngəzur dəhlizi (TRIPP) Şərq ilə Qərb, Şimal ilə Cənub arasında yeni və effektiv bağlantı yaradır. Beləliklə, Bakı-Vaşinqton əlaqələri artıq Cənubi Qafqazın yeni gələcəyini dizayn edən əsas siyasi oxlardan birinə çevrilib.

ABŞ-ın siyasi dəstəyi, Azərbaycanın təşəbbüskarlığı və qətiyyətli iradəsi əsasında formalaşan sülh prosesi Cənubi Qafqaz üçün tamamilə yeni bir gələcəyin əsasını qoyur. Bu sülh təsadüfi deyil - uzun illərin strateji səbrinin, düzgün hesablanmış siyasətin və milli gücün nəticəsidir. Azərbaycan qalib dövlət kimi regionda qarşıdurma deyil, əməkdaşlıq modeli təqdim edir. Bu model sübut edir ki, davamlı sülh güc və iradə ilə mümkündür. Azərbaycanın liderliyi ilə formalaşan yeni regional reallıq Cənubi Qafqazı münaqişə məkanından inkişaf və tərəfdaşlıq zonasına çevirir.

*P.İSMAYILOV*

**Azərbaycan Prezidenti İlham Əliyev daha bir nüfuzlu beynəlxalq təltifə - "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabi şəhərində mükafatın təqdimolunma mərasimi keçirilib. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi təkcə Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesinin irəliləməsinə, yekun sülh sazişinin paraflanmasına görə deyil, həm də Onun şəxsən sülhə, insan qardaşlığına və qlobal sabitliyə verdiyi misilsiz töhfələrə beynəlxalq ictimaiyyət tərəfindən verilən ən yüksək qiymət və ehtiramın bariz nümunəsidir.**

# Dünyanın ən prestijli mükafatlarından biri Azərbaycanda

## Dünyada böyük nüfuza malik "Zayed İnsan Qardaşlığı Mükafatı"

"Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada böyük nüfuza malikdir. Mükafat Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir.

Dövlətimizin başçısının bu mükafata layiq görülməsi, eyni zamanda, Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirilir.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edilməsi və həmin ali mükafatın məhz Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan tərəfindən şəxsən verilməsi təltifin siyasi çəkisini qat-qat artırır. Bu, Azərbaycan-BƏƏ münasibətlərinin strateji mahiyyət daşıdığına hər iki ölkədə böyük önəm verilməsinin göstəricisidir. İki dost ölkə müxtəlif sahələrdə qarşılıqlı maraqlar əsasında sıx əməkdaşlıq əlaqələri qurublar. BƏƏ özünün iqtisadi imkanları, resursları, əhali sayı etibarı ilə regionun nüfuzlu dövlətlərindən biridir. Öz növbəsində Azərbaycan İslam dünyasının bir parçası olması ilə qürur duyur və dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Ölkəmizin həm regional, həm də İslam dünyasında həyata keçirdiyi siyasət BƏƏ-nin siyasəti ilə uzlaşır. İki dost ölkə həm İslam ölkələrini birləşdirən təşkilatlar, həm də digər beynəlxalq platformalar çərçivəsində sıx əməkdaşlıq edirlər və bir-birinin mövqeyinə dəstək verirlər.

## Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın və onun Liderinin dünyada artan nüfuzunun daha bir təsdiqidir



"Zayed İnsan Qardaşlığı Mükafatı"nın fəlsəfəsində dayanan ən mühüm məqamlardan biri sülh və birgəyaşayışla bağlıdır. Ayrı-ayrı regionlarda qanlı müharibələrin alovlandığı indiki dövrdə dünyanın heç vaxt olmadığı qədər sülhə böyük ehtiyacı var. Qalib Azərbaycan da beynəlxalq birlik üçün nümunə sayıla biləcək sülh gündəliyinə malikdir. Mükafat Prezident İ.Əliyevin liderlik keyfiyyətlərinin, diplomatik məharətinin və sülhə nail olmaq üçün göstərdiyi qətiyyətin dünya miqyasında tanınması və yüksək dəyərləndirilməsi deməkdir.

Qalib Azərbaycan sülh niyyətində olduğunu müharibə başa çatandan dərhal sonra bütün dünyaya bəyan etdi. Bunun təsdiqi olaraq Azərbaycanın qarşı tərəfə göndərdiyi 5 bənddən ibarət sülh paketi beynəlxalq norma və

## Dünya üçün nümunə olan sülh gündəliyi

prinsiplərə istinad olunmaqla hazırlanmışdı. Burada Azərbaycan qalib dövlət olaraq hansısa bir imtiyazlardan çıxış etməmişdi ki, bu da ölkəmizin sülh istəyində nə qədər səmimi olduğunu təsdiqləyir. Bundan sonra sülhyaratma prosesinə start verildi. Təəssüf ki, yenə də Ermənistanın və bu dövlətin havadarlarının manipulyasiyalara əl atmaları səbəbindən sülhyaratma prosesi rəvan şəkildə irəliləmədi və müəyyən zaman itkisinə yol verildi. Ancaq nəticə etibarı ilə Azərbaycanın iradəsi qalib gəldi və sülhyaratma prosesini ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan mühüm razılaşmalaradək irəlilətmək mümkün oldu. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır.

Beləliklə, onilliklər ərzində işğalçılıq siyasətindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. İndi bu coğrafiya Azərbaycanın iradəsi və yaratdığı reallıqlar sayəsində heç vaxt olmadığı qədər sülhə yaxındır. Yekun sülh sazişinin paraflanması, eləcə də Minsk qrupunun ləğvi Azərbaycan diplomatiyasının növbəti uğurudur. Hazırda regionda real sülh şərti var və etimad quruculuğu yolunda addımlar atılır. Mükafatın Prezident İlham Əliyevə verilməsi də beynəlxalq ictimaiyyətin Onun 35 illik münaqişəni sülh yolu ilə sonlandırmaq, Cənubi Qafqazda davamlı sülh və sabitlik yaratmaq uğrunda göstərdiyi səylərə və Azərbaycanın prinsipial sülh siyasətinə verdiyi yüksək qiymətin ifadəsidir.

*Mübariz ABDULLAYEV*

## Milli və beynəlxalq səviyyədə qəbul olunan böyük Lider

Prezident İlham Əliyev üçün ən böyük və əvəzolunmaz mükafat Azərbaycan xalqının özü tərəfindən verilib. Dövlətimizin başçısı Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan, xalqımızın və dövlətimizin qarşısında duran ən mühüm məsələlərin uğurlu həllinə nail olmuş, bu gün də dövlətimizi qətiyyətlə gələcəyə doğru aparan, ən yüksək zirvələri fəth etmiş böyük Liderdir. Son 22 ildə Azərbaycan cəmiyyəti böyük məmnuniyyətlə Prezident İlham Əliyevin liderliyini qəbul edir. Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. İlham Əliyev isə ona görə fateh Liderdir ki, Onun arxasında yenilməz güc - xalq var.

Təkcə son dövrlərdə dünyada yaşanan bir sıra kataklizmlər milli dövlətlər üçün çox ağır sınaqlar olub. O cümlədən bəzi dövlətlər müharibələrin, iqtisadi böhranların, pandemiyanın gətirdiyi çətinliklərə dözə bilməyiblər və bir sıra hallarda xarici güclərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər. Azərbaycan bu kimi fəsadlardan yan ötən dövlətdir. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasətdir.

Bu gün ölkə daxilində aparılan çoxvektorlu siyasətdə cəmiyyətin bütün sosial təbəqələrinin mənafeyi diqqət mərkəzində saxlanılır. Heç kəs dövlət qayğısından kənarda qalmır. Ölkədə ədalətli resurs bölgüsü təmin edilir, dövlətin imkanları artdıqca sosial məqsədlərə yönələn tədbirlərin əhatə dairəsi də genişləndirilir.

Azərbaycan Prezidentinin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi, həmçinin Azərbaycana və onun Liderinə beynəlxalq aləmdə göstərilən yüksək hörmət və etibarın parlaq təcəssümüdür. Bu gün Azərbaycan dünyada dialoq məkanı kimi tanınır. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəssinə uyğun olaraq ölkəmiz davamlı olaraq qlobal həmrəyliyin gücləndirilməsinə hesablanan təşəbbüslər irəli sürür, həmçinin dünya gündəliyinin aktual məsələlərinin müzakirə olunduğu mühüm beynəlxalq tədbirlərə məmnuniyyətlə ev sahibliyi edir. Ölkəmizin böyük məsuliyyətlə ev sahibliyi etdiyi COP29 konfransında bir sıra önəmli substantiv nəticələr əldə olundu. COP29-dan sonra cari ildə ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsi baxımından daha bir mühüm hadisəyə də diqqət çəkmək istərdik. Bu, ölkəmizin D-8 beynəlxalq təşkilatına üzv qəbul edilməsidir. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini birləşdirir. Azərbaycan 2024-cü il dekabrın 19-da D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilib. Respublikamızın yekdilliklə D-8-in üzvlüyünə qəbul edilməsi İslam səkkizliyinin tarixində ilk genişlənmə idi. Bu və digər fakt İslam dünyasında Azərbaycanın nüfuzunun artmasının göstəricisidir.

# Bakı ilə Əbu-Dabi qardaşlaşır

İslam dövlətləri ilə siyasi, iqtisadi, humanitar-mədəni əlaqələrin genişləndirilməsi Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursunun prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Qısa müstəqillik tarixində ölkəmizin əksər İslam dövlətləri ilə qarşılıqlı maraqlar əsasında yüksək səviyyəli münasibətlər qurmağa nail olması bunun əyani təsdiqidir.

Özünün siyasi çəkisi, əhali sayı, resursları və geniş maliyyə imkanları ilə ərəb dünyasının önəmli dövlətlərindən olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) də respublikamızın sıx tərəfdaşlıq münasibətləri qurduğu ölkələr sırasında yer alır. Prezident İlham Əliyev bu günlərdə növbəti dəfə dost ölkəyə işgüzar səfərə gəlib. Səfər çərçivəsində dövlətimizin başçısının Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, inkişafından məmnunluq ifadə olunub, həmçinin Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələləri də qeyd edilib.

## Genişlənən siyasi dialoq

Prezidentlərin görüşündə Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələlərinin gündəmə gətirilməsi ikitərəfli münasibətlərin yüksək səviyyəsindən xəbər verir. İkitərəfli münasibətlərin genişlənməsi Azərbaycanla BƏƏ arasında siyasi dialoqun davamlı olaraq genişlənməsinin nəticəsidir. Hər iki ölkədə dövlətlər və cəmiyyətlər səviyyəsində qarşılıqlı münasibətlərin əhatə dairəsinin genişlənməsinə güclü siyasi iradə və istək var.

Azərbaycan ilə BƏƏ arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Ölkələrimiz arasında əlaqələr ikitərəfli platformada, eləcə də beynəlxalq təşkilatlar, xüsusilə də BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində inkişaf edib. Diplomatik əlaqələrin inkişafı, iki ölkə arasında münasibətlərin dostluq zəminində yüksək trayektoriya qazanması 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib.

Ümummilli Liderin əsasını qoyduğu bu əlaqələr sonrakı mərhələdə uğurla davam etdirilərək yeni inkişaf səviyyəsinə yüksəlib. Abu-Dabidə baş tutan görüşdə ikitərəfli münasibətlərin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edilib. Prezident İlham Əliyevin 2006-cı ildə BƏƏ-yə ilk rəsmi səfəri ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafında dönüş nöqtəsi olub. Sonrakı illərdə dövlətimizin başçısının dost ölkəyə səfərləri daha intensiv hal alıb. Azərbaycan Prezidentinin 2023-cü ilin sonlarında BƏƏ-nin ev sahibliyi etdiyi Əbu-Dabi Davamlılıq Həftəsinə dəvət edilməsi və bu tədbirdə yüksək səviyyədə iştirakı ikitərəfli siyasi dialoqun daha da möhkəmlənməsinə mühüm töhfə verib. Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi barədə qərar da məhz BƏƏ-də bəhs olunan səfər çərçivəsində qəbul edilib. BƏƏ-dən estafeti götürən Azərbaycan 2024-cü ilin noyabr ayında COP29-a yüksək səviyyədə ev sahibliyi etdi və Bakıda qlobal iqlim əməkdaşlığı üzrə bir sıra mühüm razılaşmalar əldə olundu.

2024-cü ilin yanvarında isə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri BƏƏ tərəfindən ölkəmizə ilk ali səviyyəli səfər kimi qeyd olunmalı mühüm hadisədir. Bu səfər iki ölkə arasında siyasi etimadın artmasının göstəricisisi kimi dəyərləndirilir.

## Şuşa görüşü - qarşılıqlı etimadın əyani təsdiqi

Dost ölkənin liderinin ötən ilin sentyabrında azad Şuşaya təşrif gətirməsi və burada Prezident İlham Əliyevlə görüşməsi isə xüsusi önəm daşıyır. Əlamətdar haldır ki, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu dəfə respublikamıza səfərini paytaxt Bakıya deyil, işğaldan azad olunmuş ərazilərə - azad Qarabağa edib. Bu, dost ölkənin dövlət başçısının 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı tarixi qələbələrlə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycana xüsusi jestidir və böyük məmnunluq doğurur. Məlumdur ki, bəzi dövlətlər, ayrı-ayrı təsisatlar hələ də Azərbaycanın tarixi zəfərlərini sinirə bilmir və bunu siyasi manipulyasiya predmetinə çevirməyə çalışırlar. Ancaq İslamafob, Azərbaycanafob dairələrin qatarı çoxdan gedib. Ötən il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Donald Trampın şahidliyi ilə əldə olunan razılaşmalar ondan xəbər verir ki, beynəlxalq birlik Azərbaycanın ədalətli mövqeyini və sülh gündəliyini bütünlüklə qəbul edir. Yeri gəlmişkən, 2025-ci ilin iyul ayında BƏƏ-nin ev sahibliyi ilə Abu-Dabidə Azərbaycan və Ermənistan liderlərinin görüşünün baş tutması süllhyaratma prosesində irəliyə doğru atılmış mühüm addım kimi dəyərləndirilir. Dost BƏƏ-də aparılan müzakirələr Vaşinqtonda daha da inkişaf etdirlmiş və yekun sülh sazişi paraflanmışdır. Abu-Dabi görüşünün ardından Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın azad Qarabağa səfərə gəlməsi iki ölkə arasında qarşılıqlı etimadın nə qədər yüksək olduğuna dəlalət edir.





## Birgə Bəyannamənin strateji əhəmiyyəti

Cari il fevralın 2-də Abu-Dabidə baş tutan söhbət zamanı liderlər Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığına xüsusi diqqət çəkiblər. Qeyd edək ki, Azərbaycanla BƏƏ-nin münasibətlərinin starteji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi BƏƏ Prezidentinin ötən ilin sentyabrında azad Qarabağa səfəri çərçivəsində Şuşada imzalanan "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" ilə növbəti dəfə təsbit olunub. Bu Bəyannamə iki ölkə arasında münasibətlərin yeni, daha yüksək səviyyəyə qalxmasını ifadə edir və siyasi, iqtisadi, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlığın sistemli şəkildə genişləndirilməsini nəzərdə tutur. "Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir. Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir", - deyə dövlətimizin başçısı Şuşa görüşündə vurğulayıb.

Bəhs olunan sənədə əsasən iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin yaradılması nəzərdə tutulur. Tərəflər dövlət nümayəndələrinin iştirakı ilə birgə komitə təsis edirlər. Bu komitə tərəfdaşlığın həyata keçirilməsi üçün yol xəritəsi, icra proqramları və iş planları hazırlayacaq. Bu addım əlaqələrin strukturlaşdırılmış, davamlı və sistemli inkişafına zəmin yaradır.

Bəyannamədə həmçinin parlamentlərarası əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur. Parlamentlər səviyyəsində əməkdaşlığın artırılması dostluq və etimadın möhkəmlənməsinə, qanunvericilik sahəsində təcrübə mübadiləsinə və siyasi dialoqun genişlənməsinə səbəb olur. Bu əməkdaşlıq dövlətlərarası münasibətlərin demokratik institutlar səviyyəsində daha da dərinləşdiyini nümayiş etdirir.

Bundan başqa, sənəd təhsil, mədəniyyət və turizm sahələrində əməkdaşlığın inkişafını hədəfləyir. Bu sahədə daimi əməkdaşlıq iki ölkənin vətəndaşları arasında dostluq və qarşılıqlı anlaşmanı artıracaq.

*Mübariz ABDULLAYEV*

# Liderlərin təbrikləri...

## Azərbaycan Prezidentinin güclü lider olduğu beynəlxalq müstəvidə etiraf olunur

Hazırda dünyada baş verən geosiyasi dəyişikliklər, regional münaqişələr və enerji təhlükəsizliyi ilə bağlı qlobal narahatlıqlar beynəlxalq münasibətlər sistemində yeni reallıqlar formalaşdırıb. Belə bir mürəkkəb mühitdə müstəqil və çevik xarici siyasət yürütmək, milli maraqları qlobal səviyyədə səmərəli şəkildə müdafiə etmək hər bir dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Bu situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitliyə və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal nümunə kimi çıxış edir. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb.

### Xarici siyasət Azərbaycana mühüm uğurlar qazandırıb

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu həm regional sabitliyin təmin olunmasında, həm də ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin praqmatik düşüncəyə və milli maraqların qorunmasına əsaslanan xarici siyasəti Azərbaycana beynəlxalq müstəvidə mühüm uğurlar qazandırıb. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin adı, fəaliyyəti və siyasəti inkişaf, sülh və sabitlik anlayışları ilə assosiasiya olunur. Azərbaycan Prezidenti ölkənin geosiyasi mövqeyindən, ərazi xüsusiyyətlərindən, əhali sayından və digər faktorlardan asılı olmayaraq öz strateji iradəsi əsasında müstəqil siyasət yeridə biləcəyini əyani şəkildə - əməli fəaliyyəti ilə sübuta yetirib. Bu səbəbdən də dövlətimizin başçısının beynəlxalq müstəvidə də nüfuzu davamlı olaraq yüksəlir. Buna fevralın 4-də Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində bir daha şahid olduq. Mərasimdə bu mükafat Azərbaycan Prezidenti İlham Əliyevə də təqdim olunub. Tədbir zamanı bir sıra dövlətlərin liderlərinin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətləri nümayiş olunub. Liderlər sülh və sabitlik naminə Azərbaycanın və onun rəhbərinin rolunu, bütövlükdə sülhün region üçün önəmini xüsusi vurğulayıblar.




bir ölkənin rəhbərinin belə fikirlər söyləməsi təsadüfi deyil. Bunun səbəbi Prezident İlham Əliyevin "dəmir yumruğu" - qətiyyət və gücüdür. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin Prezident İlham Əliyevin liderliyi ilə azad olunması dövlətimizin gücünü Ermənistanla yanaşı, bütün dünyaya nümayiş etdirdi.

Bütövlükdə, Prezident İlham Əliyevin hərb, siyasət, diplomatiya və informasiya-təbliğat müstəvisində strategiyasının uğurlu nəticələri təkcə Azərbaycanın tarixi Zəfərində öz əksini tapmayıb. İlham Əliyevin yüksək liderlik keyfiyyətləri və qətiyyətli mövqeyi fonunda həyata keçirilən strateji kursun nəticəsində həm də çox mühüm geostrateji reallıqlar yaranıb. Bu reallıqlar, ilk növbədə, Azərbaycan dövlətinin gücününü göstəricisi olmaqla yanaşı, ölkəmizə tərəqqi, regiona rifah və inkişaf vəd edir. Azərbaycan Prezidentinin strateji təşəbbüsləri özündə həm tarixi ənənələri, həm mənəvi dəyərləri, həm siyasi reallıqları, həm də milli maraqları ehtiva edir. Bu amillər dünya ölkələrini də İlham Əliyev faktoru ilə hesablaşmağa təşviq edir. Məhz bütün bunlara görə də, Azərbaycan Prezidentinin böyük şəxsiyyət və güclü lider olduğu beynəlxalq müstəvidə də etiraf olunur.

### Ərdoğan: Türkiyə olaraq sülhə yönələn bütün təşəbbüsləri dəstəkləyirik

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan davamlı sülhün bərqərar olması yolunda İlham Əliyevin atdığı cəsur addımları xüsusi vurğulayıb. "Türkiyə olaraq bölgəmizdə və dünyada əmin-amanlıq, sülh, rifah və sabitliyə yönələn bütün təşəbbüsləri səmimiyyətlə dəstəkləyirik. Qafqazda davamlı sülhün bərqərar olması üçün üzərimizə nə düşürsə etməyə, ədalətə əsaslanan dostluq körpülərinin qurulmasında fəal şəkildə çalışmağa, inşallah, davam edəcəyik",- deyə Ərdoğan qeyd edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə deyib ki, bu mükafat qarşıdurma məntiqi əvəzinə sülhün, kin əvəzinə məsuliyyətin, keçmiş əvəzinə gələcəyin seçilməsi baxımından müdrik rəhbərliyi qeyd edir: "Dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda belə siyasətin müstəsna mənəvi və siyasi əhəmiyyəti var. Sülh sazişi istiqamətində Azərbaycanın və Ermənistanın əldə etdiyi irəliləyiş tarixi əhəmiyyətə malik dönüş nöqtəsidir. Bu, hətta uzunmüddətli münaqişələrin dialoq, məsuliyyət və təmkinlik vasitəsilə həll oluna biləcəyini nümayiş etdirir".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də qeyd edib ki, uzun sürmüş münaqişəni rasional şəkildə həll etmək və sülhə nail olmaq naminə həmin siyasi liderlərin birgə səyləri bu nüfuzlu mükafata layiqdir: "Əldə olunmuş razılaşma problemin həllində məsuliyyətli yanaşmanın, bütöv regionumuzda sabitliyin təmin edilməsi istiqamətində atılmış tarixi addımın bariz nümunəsidir".

### Şahbaz Şərif: Biz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdən fəxr hissi duyuruq

"Parçalanma və münaqişələr məngənəsində olan dünyada Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri hər zaman görünüb, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında sülhə yolun açılmasında, əmin-amanlığın gücləndirilməsində öz özünü büruzə verib. Həmin olduqca mühüm razılaşma təxminən dörd onillik sürən münaqişəyə son qoydu və beləliklə, Zayed Mükafatının dərindən təşviq etdiyi insan qardaşlığının, həmrəyliyin, mərhəmətin, ortaq insani dəyərlərin əsl nümunəsini təcəssüm etdirir". Bu fikirləri isə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif deyib. Onun sözlərinə görə, Pakistan ilə Azərbaycanı dərin kökləri olan qardaşlıq, qətiyyətli qarşılıqlı dəstək telləri bağlayır, xalqlarımızı çalışdıqları qlobal sülh, rifah və dayanıqlı inkişaf dəyərləri birləşdirir: "Biz Prezident İlham Əliyevin müdrik və düşünülmüş rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdən fəxr hissi duyuruq".

Mərasimdə Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Livan Prezidenti Cosef Aunun, Türkiyənin birinci xanımı Əminə Ərdoğanın və İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın da "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətləri səslənib. Çıxışlarda Azərbaycanla Ermənistan arasında əldə edilən razılaşmaların regionda dayanıqlı sülhü təmin edəcəyinə inam ifadə olunub.

Ermənistanın baş naziri Nikol Paşinyan isə mükafatın təqdimatında çıxışı zamanı xalqlarımız arasında əmin-amanlığın təmin olunması və etimada əsaslanması üçün səylərin davam etdiriləcəyini qeyd edib. Əlbəttə, vaxtilə torpaqlarımızı 30 il işğal altında saxlamış

*Nardar BAYRAMLI*

# Sarsılmaz iradə və prinsipiallığın nəticəsi...

Dünyada mövcud olan ikili standartların, beynəlxalq hüquq normalarının işləməməsinin acı təcrübəsini ən çox yaşayan ölkələrdən biri də Azərbaycandır. 1990-cı illərin əvvəlində Ermənistan xarici havadarlarının dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edərkən dünya birliyi buna susdu. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında 4 qətnamə qəbul etsə də, həmin qətnamələr 27 il kağız üzərində qaldı. Azərbaycan beynəlxalq birlikdən bu qətnamələrin icra edilməsi üçün Ermənistana qarşı addımlar atılmasını tələb etsə də, heç bir tədbir görülmədi.

### Prezident vədlərinə əməl etdi

Halbuki, BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə saat ərzində icra olunub. Çünki həmin məsələlər böyük dövlətlərin maraqlarına uyğun idi. Azərbaycan isə 27 il gözlədikdən sonra bu qətnamələri öz gücünə icra etməyə məcbur oldu. Belə ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan öz torpaqlarını erməni işğalından azad edərək beynəlxalq hüququ bərpa etdi. 2023-cü ilin sentyabr ayında Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam təmin olundu. Amma hər zaman beynəlxalq hüquqdan danışan bəzi böyük dövlətlər Azərbaycanın haqq işinə mane olmağa çalışsalar da, buna nail ola bilmədilər. Onlar həm 44 günlük müharibə, həm də antiterror tədbirləri zamanı ölkəmizə qarşı hədə-qorxu, təhdid dili ilə danışmağa çalışdılar. Prezident İlham Əliyev isə belə təzyiqlərin qarşısını qətiyyətlə aldı.

Xatırladaq ki, İlham Əliyev hakimiyyətə gələndə bəyan etmişdi ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç zaman barışmayacaq, ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. Məhz belə də oldu. Dövlətimizin başçısı qəti iradə, prinsipiallıq nümayiş etdirdi, xalqımız qarşısında verdiyi sözə həmişə əməl etdiyi kimi, bu dəfə də vədinə sadiq qaldı. Eyni zamanda, Prezident hələ müharibədən əvvəl Xocalı soyqırımını, digər cinayətləri törədən şəxslərin mütləq ədalət mühakiməsinə cəlb olunacaqlarını, layiqli cəzalarını alacaqlarını və günahsız qurbanların qanının yerdə qalmayacağını demişdi. "Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq", - deyə Prezident İlham Əliyev Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşündə iştirak zamanı bildirmişdi.



### Xocalı faciəsinin qurbanlarının qanı yerdə qalmadı

Təbii ki, verilən vədlərin reallaşması Azərbaycan dövlətinin gücünü və ədalət prinsipinə sadiqliyini aydın şəkildə ortaya qoyur. Xalqın etimadı ilə siyasi iradənin vəhdəti ölkənin müasir tarixində həlledici rol oynadı və tarixi ədalətin bərpasına zəmin yaratdı. Qeyd etdiyimiz kimi, Ali Baş Komandan İlham Əliyev rəhbərliyi ilə Azərbaycan bütün təzyiqlərə baxmayaraq, ərazi bütövlüyünü öz gücü hesabına təmin etdi. Prezidentin Xocalıda Dövlət Bayrağını ucaltması bu yolun mənəvi zirvəsi oldu. Dövlət başçısının qeyd etdiyi kimi, bu hadisə Xocalı qurbanlarının qanının yerdə qalmadığını və Zəfərin məntiqi sonluğunu təsdiqlədi. Prezident İlham Əliyev 2024-cü ilin yanvarında yerli telekanallara müsahibəsində söyləmişdi: "Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi".

Xatırladaq ki, Qarabağda antiterror tədbirlərindən sonra separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar. Fevralın 5-də onların bir qisminə hökm oxundu. Belə ki, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan, David Babayan ömürlük azadlıqdan məhrum edilibər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan isə 19 il həbs cəzasına məhkum olunublar. Digər cinayətkarlar da layiq olduqları cəzaları alacaqlar.

Beləliklə, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan torpaqlarımızın işğalında və dinc əhalinin qətlində iştirak etmiş cinayətkarların da layiqli cəzalarını verir. Eyni zamanda, dövlətimiz davamlı olaraq təhlükəsizlik tədbirləri görür, öz hərbi və iqtisadi gücünü artırır. Bütün bunlar müstəqil dövlətimizi beynəlxalq təhdidlərdən qorumaq üçün vacib amildir. Eləcə də, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Digər tərəfdən, ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bütün bu amillər təbii ki, Azərbaycanın güclənməsini istəməyən xarici dairələrə də tutarlı cavabdır. Yəni ölkəmizin dünya miqyasında yüksək nüfuzu və güclü mövqeyi Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nümunəsidir.

*Nardar BAYRAMLI*

# Yeni iqtisadi artım proqnozları açıqlanıb

## ÜDM 2026-cı il üzrə 2,4, 2027-ci il üzrə isə 2,9 faiz proqnozlaşdırılır

Azərbaycanda iqtisadi artımın (ÜDM) 2026-cı ildə 2,4, qeyri-neft-qaz sektoru üzrə ÜDM artımının 4 faiz olacağı proqnozlaşdırılır. Bu barədə Mərkəzi Bankının (MB) sədri Taleh Kazımov bildirib. Qeyd edib ki, 2027-ci ildə isə ölkədə iqtisadi artımın 2,9 və qeyri-neft-qaz sektoru üzrə artımın isə 4,3 faiz təşkil edəcəyi proqnozlaşdırılır.




İqtisadiyyat Nazirliyinin iqtisadi artımla bağlı cari və ortamüddətli dövr üzrə proqnozları da Mərkəzi Bankın ehtimallarına uyğundur. Nazirlik ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,9 faiz olacağını proqnozlaşdırır. Belə ki, 2026-cı ildə əlavə dəyərin real artımının 2,9 faiz, 2027-ci ildə 3,3 faiz, 2028-ci ildə isə 3,1 faiz olacağı fərz edilir. Qeyri-neft ÜDM-nin isə cari ildə 5 faiz, gələn il 4,8 faiz, 2028-ci ildə isə 5 faiz artacağı gözlənilir. Ortamüddətli Xərclər Çərçivəsi sənədində 2026-cı ilin sonuna ÜDM-in həcminin 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata , o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir.

**Beynəlxalq agentliklərin proqnozları qənaətbəxşdir**

Qeyd edək ki, beynəlxalq agentliklərin və iqtisadi institutların da ölkəmizlə bağlı proqnozları da ümidvericidir. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına görə, Azərbaycanda iqtisadi artım 2026-cı il üzrə 2,5 faiz, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək. Artımın əsas mənbəyi kimi qeyri-neft sahələrindən əldə edilən əlavə dəyərlər əsas hesab olunur. Hazırda qeyri-neft sektorundakı artımın 6-7 faiz təşkil etməsi iqtisadi inkişafın hərəkətverici drayverlərinin artıq daha işlək olmasından xəbər verir. BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq.

Asiya İnkişaf Bankı 2026-cı ildə Azərbaycan iqtisadiyyatının 2 faiz, Avropa Yenidənqurma və İnkişaf Bankı 2,5 faiz, “ING Group” isə 2026-cı ildə 2,8 faiz, 2027-ci ildə isə 2 faiz artım olacağını fərz edir.

BMT-nin qiymətləndirmələrinə görə, Azərbaycanın iqtisadi artımı 2026-cı ildə 2,7, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək.

Beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələri də demək olar ki, oxşardır. “S&P Global” agentliyi ölkəmizdə artımın 2026-cı ildə 2 faiz, “Fitch Ratings” 2,5 faiz, “Moody’s” isə 2,5 faiz olacağını gözləyir.

**Dünya Bankından ümidverici proqnozlar**

Nüfuzlu qlobal iqtisadi institutlardan olan Dünya Bankının (DB) da Azərbaycanda iqtisadi artımla bağlı yanvar proqnozları müsbətdir. Bankın ekspert icmasının beynəlxalq ictimaiyyətə təqdim etdiyi “Qlobal İqtisadi Perspektivlə” hesabatına əsasən, 2026-cı ildə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 1,8 faiz, 2027-ci ildə isə 1,7 faiz artacaq. Ehtimallara görə, Cənubi Qafqaz ölkələrinin ümumi ÜDM artımı 2026-cı ildə 3,3 faiz, 2027-ci ildə isə 3,1 faiz səviyyəsində olacaq.

Hesabatda qeyd olunur ki, Azərbaycanda iqtisadi fəallıq karbohidrogen hasilatının azalması, dünya neft qiymətlərinin düşməsi və büdcə siyasətinin sərtləşməsi ilə məhdudlaşacaq. Ermənistan və Gürcüstanda yüksək baza səviyyəsindən sonra iqtisadi fəallığın normallaşması ilə özəl istehlakın yavaşlaması gözlənilir, pul köçürmələrinin zəifləməsi və ixrac gəlirlərinin azalması isə cari hesablara təzyiq göstərəcək.

DB-nin şərhinə əsasən, Azərbaycan iqtisadiyyatı üçün neft-qaz gəlirləri əhəmiyyətli mənbə olsa da, son illərdə xüsusi artım nümayiş etdirən qeyri-neft sektorundakı mənbələr iqtisadi artımın neftə deyil, qeyri-neft sahələrinə əsaslandığını göstərir. 2025-cü ildə ÜDM istehsalında qeyri- neft-qaz sektorunun payının artaraq 4 faiz təşkil etməsi əlavə dəyərin baza sütununun enerji sektoruna deyil, iqtisadi inkişafın əsas ağırlıq yükü və dayanıqlı sütunları olan qeyri-neft sektoruna söykəndiyini təsdiqləyir.

Qeyri-neft sektorunun artmasında əsas amillər kimi biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılması müsbət dəyərləndirilir.

*E.CƏFƏRLİ*

# Ramiz Mehdiyev dedi ki, onun evindəki telefonu kəsin

## “Boz kardinal”ın “kardinallıq” “azarı”... Yaxud Siz kimsiniz, R. Mehdiyev?

əvvəli ötən saylarımızda

Bizim danışığımızı, ona yalnız həqiqəti əks etdirən sərt sözlərimi yazmaq istəmirəm. O telefon zəngindən sonra əmin oldum: təqiblər davam edir və edəcək!. Ona görə daha çox işləmək lazımdır. Belə şəraitdə, belə münasibətlər zəminində başladım işləməyə. Bir daha vurğulayıram: Dövlət Komitəsinin və ümumiyyətlə, din sahəsində saysız-hesabsız problemlərin necə üsulluca həlli barədə danışmaq istəmirəm. Ancaq bu problemlərin həllinə mane olmaq nə deməkdir?

Təqib-təqib dalınca, qərəz-qərəz ardınca. Dövlət müşaviri postunda da, Dövlət Komitəsində də... Mənsə heç nəyə fikir vermədən təqiblərin, qərəzlərin üstüylə addımlayırdım. Dövlət Komitəsində də işlər tamamilə yenidən quruldu. İxtisaslı gənc kadrlar cəlb olundu. Yeni təyin olunanlar yalnız BDU-nun İlahiyyat fakültəsinin məzunları idi. Onlardan öncə işləyənlərin əksəriyyəti xarici ölkələrdə təriqətçi yönlü təhsil almışlardı və o ölkələrin gerçəklərini ölkəmizdə də yaymaqda maraqlıydılar.. Mən orda işə başlayanda Dövlət Komitəsində cəmi 42 ştat vahidi vardı. Qısa vaxtda səksən neçəyə çatdırıldı. Yalnız mərkəzi aparat deyil, bölgə şöbələri möhkəmləndirildi. Baş nazir Artur Rasizadə mənə dedi ki, onun uzun illər yüksək dövlət qulluğu təcrübəsində ilk dəfə görür ki, nazirliyin, ya dövlət komitəsinin ştat vahidləri qısa vaxtda yüz faizdən çox artırılır. Artur müəllim dövlət işində digər müsbət keyfiyyətləri ilə birlikdə, qənaətcil Baş nazir idi, Dövlət Komitəsinin ştatlarının artırılmasının vacibliyini dəqiq anlayırdı. Ecazkar Bakı memarlığının incilərindən olan Dövlət Komitəsinin binası qədim tarixində ilk dəfə olaraq əsaslı təmir olundu, bura gələn yalnız xaricilər deyil, öz vətəndaşlarımız da xoş heyrətlərini gizlətmirdilər. Hərtərəfli iş gedirdi, qlobal problemlərdən başlamış, kiçik detallaracan heç nə diqqətdən kənarda qalmırdı. Ölkəmizdəki dini durum artıq millətlərarası unikal xoş münasibətlər sistemi kimi dünyaya yayılırdı... Mən qeyd etdiyim bu faktlar həm Dövlət Müşaviri xidmətində, həm də Dövlət Komitəsində o vaxtlar görülən işlərin heç yüzdə biri deyil.

Ancaq sonsuz təqiblər də, qərəzlər də bu yazdıqlarımın heç yüzdə biri deyil. Bu məqamda bir epizodu xatırlatmamaq mümkün deyil: 2009-cu ilin avqustunda Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin anadan olmasının 60 illiyi yubileyi idi. Sadalamaq istəmirəm, yalnız onu deyim ki, Dövlət Komitəsi bütün təşkilati işləri yüksək səviyyədə həyata keçirdi. Yubiley öncəsi bildirildi ki, yubiley tədbirini mən aparmalıyam. “Gülüstan” Sarayında tədbirin başlamasına bir saat qalmış mənə bildirildi ki, tədbiri gözəgörünməyən, yalnız səsi eşidilən diktor aparacaq, daha doğrusu, çıxış edənlərin adlarını bəyan edəcək. Sağ-salamat insanın (Allah uzun ömür versin!) yubileyini səhnə arxasından radio ilə aparmaq? Kim belə aparıcılıq görüb? Əminəm ki, heç kəs! Əminəm ki, bundan sonra da görməyəcəyik!. Mehdiyevsayağı yanaşmadır. Əsas məqsəd Hidayət Orucovun səhnədə görünməməsidir! Qərəzini, təqibini bununla da soyutmadı.

Bazar günüydü, yubileydən yüksək qonaqları yola salandan sonra bir az dincəlmək, özümə gəlmək istəyirdim. Müvafiq yerə vacib bir məsələ üçün hökumət telefonu ilə zəng çalmalıydım, gördüm telefon işləmir. Prezidentin İşlər İdarəsinin müdiri Oqtay Şahbazova zəng çalıb telefonun işləməməsinin səbəbini soruşdum. Dedi: “Dünən Ramiz Mehdiyev zəng çalıb əmr etdi ki, Hidayət Orucovun evindəki hökumət telefonunu kəsin”. Dünən? Şeyxülislamın yubileyinin ertəsi günü. Bu da yubileyin hazırlanmasına sərf edilən azı üç ayda zəhmətimin “mükafatıydı”.

Məsələ tam aydın olsun deyə bir az önə dönməliyəm. On dörd il Dövlət müşaviri işlədiyim müddətdə evimdə həmişə hökumət telefonu olub. Prezident məni Dövlət Komitəsinə sədr təyin edəndə soruşdu:

- Dövlət müşavirinin Dövlət Komitəsinin sədrindən nə üstünlükləri var? Maaşda və sairə...

Dövlət müşavirinin maaşı sədrə nisbətən yuxarı idi. Onu dedim.

- Evimdə hökumət telefonu var - dedim.

- O elə Dövlət Komitəsidir ki, indiki halda sədrin evində də hökumət telefonu lazımdır. Oqtay Şahbazova deyin ki, nə var - hamısı qalır.

Mən də Oqtay Şahbazova dedim. Sədr postumda evimdə üç ildən çox hökumət telefonu oldu. Hətta yay aylarında bağda yaşayanda hökumət telefonunu ora köçürdülər. Və evdə hökumət telefonu həm dövlət müşavirinə, həm də dövlət komitəsinin sədrinə çox gərəkli idi - o telefonla gecələr Ulu Öndərə də, cənab Prezidentə də məruzələr etmişəm. Onlar da mənə zəng çalıblar... Lakin Mehdiyevin qərəzi heç nəyə baxmırdı, hətta Prezidentin tapşırığı ilə evimə qoyulan hökumət telefonunun götürülməsinə də.

Mehdiyev Aparatın özündə mənə qarşı qrup formalaşdırmışdı. Bu yazıda iki yerdə onlar haqqında adlarını çəkmədən qeydim oldu, bu yazını oxuyanda özlərini ap-aydın görəcəklər.

Dövlət Komitəsinin ölkədə dinin siyasiləşməsinin qeyri-ənənəvi, zərərli təriqətlərin yayılmasının, radikal qrupların fəaliyyətinin qarşısının alınmasında, digər təxirəsalınmaz problemlərin həllində, gördüyü səmərəli işlər, həyata keçirdiyi məqsədyönlü fəaliyyət “sevimli köməkçini” qətiyyən qane etmirdi. Mehdiyev Prezident Aparatının iki-üç şöbə müdirlərinin, uyğun nazirlərin iştirak etdikləri müşavirələrdə dini durumla bağlı məsələ müzakirə olunanda fəaliyyətimi qaralamaq üçün mütləq ona söz verirdi. O, “vəzifəsini” canla-başla icra eləmək üçün dəridən-qabıqdan çıxırdı. Əlbəttə, mən çıxış edib onun uydurmalarını yerli-dibli təkzib edirdim. Mehdiyevin dini duruma həsr etdiyi müşavirələrdən söz düşmüşkən - o, 6 ildə üç dəfə belə müşavirə keçirdi, üçündə də istəyinə nail ola bilmədi. Yaxın ətrafında olan üç-dörd nəfərdən başqa haqsız, əsassız ittihamlara qarşı etiraz edənlər də vardı. Ona ən yaxın şöbə müdirlərindən biri mənə dedi ki, hər dəfə Milli Təhlükəsizlik naziri çıxış edəndən sonra müşavirənin “məqsədi”, istiqaməti Sizdən uzaqlaşır. Milli Təhlükəsizlik naziri dini durumun problemlərini bilirdi və əmin idi ki Dövlət Komitəsinin məqsədyönlü fəaliyyətinin alternativi yoxdur. Daxili İşlər nazirinin də belə haqsız ittihamlara mənfi münasibəti üzündən oxunurdu. Baş prokuror isə... Mehdiyevi, sevimli köməkçisini dəstəkləmək üçün faktsız-filansız ədalarla danışırdı.

Belə yüksək vəzifəlilərin iştirakı ilə keçirilən müşavirədə köməkçiyə söz vermək hansı dövlət protokoluna uyğundur? Bu barədə bir az sonra.

Dinin siyasiləşməsi üçün əllərindən gələni edirdilər, Dövlət Komitəsinin ciddi nəzarəti sayəsində heç nəyə nail olmadıqlarından mənə qarşı aşıq-aşkar şantaja keçirdilər. Prezidentimizin başçılığı ilə apardığımız düzgün milli siyasətə qarşı olan və mənə açıq-aşkar qarşı çıxan adamlar da aktivləşirdi. Elə o “aktivlərin” təşəbbüsü ilə Mehdiyevin yanında iki şöbə müdirinin və mənim iştirakımla görüş keçirildi. Üç saata yaxın çəkən fasiləsiz görüşdə mən əsassız ittihamları rədd etməklə yanaşı, onların üçünü də kəskin tənqid etdim, sevimli köməkçinin antimilli və antidövlət fəaliyyətini də əsaslı faktlarla açıqladım. Mehdiyev köməkçisini çağırdı, o, ayaq üstə iki-üç yalan uydurandan sonra Mehdiyev nə desə yaxşıdır?



*Hidayət*

- Get, mən sənə inanıram!

- Onda böyüdün vəzifəsini - istehza ilə söylədim.

Çox keçmədən həqiqətən böyütdü: şöbə müdiri elədi. Mətbuatda da məktubları, telefon danışıqları çap olunub: “Feto “başkanına” şad xəbər kimi, fərəhlə yazırdı: “Mənim “görəvim” indi böyüyüb”. Onu da xüsusilə qeyd edirdi: “İndi bəzi məsələləri telefonla açmıram, eşidərlər, köməkçiniz vasitəsilə sizə çatdıracağam”.

Telefon danışığının dinlənilməsindən çəkinirdi. Nəyi çatdıracaqdı?

Mehdiyevin elə mətbuatda çap olunan varidatı, satışa çıxardığı mülkləri haqqında məlumatlar, göstərilən rəqəmlə, qiymətlər qəzet səhifələrinə sığmır, azı yüz milyonlarla manata çatır. Hələ ailə üzvlərinin var-dövləti üstündə keçirilən məhkəmə çəkişmələrində səslənən rəqəmlər iddialar, faktlar... Mənim isə... Azərbaycanın şəhərlərini küçəbəküçə, kəndlərini məhəllə-məhəllə gəzsin, dünyanın hər yerini soraqlasın, heç olmasa bircə kiçik qəzet köşkümü axtarsın...Tapa bilməzlər axı! Çünki yoxdur! Yoxdur!! Yoxdur!!!

Bütün təqiblərə, qərəzlərə, məkrli münasibətlərə baxmayaraq, Dövlət Komitəsi öz işindəydi. Ölkədə dini durum - sabitlik, etiqad azadlığı ideal vəziyyətdəydi. Altı il gərgin zəhmətdən sonra axır ki, bir az dincəlmək vaxtıydı. 2012-ci il may ayının 30-da PA-nın şöbə müdiri ilə görüşdüm. Söhbətimizin əvvəlində heç gözləmədiyim halda dedi: “Rəhbərlik Sizin işinizdən çox razıdır”.

“Mehdiyev də?” - istehza ilə soruşdum. Susdu. Söhbətin yönünü dəyişdi. Bir az başqa mövzularda danışandan sonra dedim:

- Mən gələn ayın axırlarında məzuniyyətə çıxmaq istəyirəm. Bilirsən ki, Dövlət Komitəsinə gedəndən sonra məzuniyyətdə olmamışam. Şükür, vaxtı gəldi - çatdı.

- Əlbəttə, - dedi - ancaq Prezidentə bir ərizə yazın. Qayda belədir - dedi - hökumət üzvləri - hamısı yazırlar.

Ayrıldıq.

Ərizə yazmağa hələ vaxt vardı...

Ertəsi günü - mayın 31-də günortadan sonra mənə telefon açdı:

- Dövlət Komitəsinə yeni sədr təyin olunub. Saat 5-də gəlirik təqdimata.

Heç soruşmadım kimdir? Bəs dünənki söhbətimiz?

Cümə axşamıydı:

-Təqdimatı saxlayın bazar ertəsinə. Mən yığışmalıyam. On dörd il Dövlət müşavirliyi kabinetində nə vardısa, gətirmişəm bura. Kitablar, əlyazmalar, şəxsi əşyalar...

- Prezidentin Sərəncamı bu gün icra olunmalıdır.

- Yaxşı - dedim.

Haqq-ədalət tapdananda Prezidentin Sərəncamı “dada” çatır.

Gəldi. Kollektiv nə desən gözləyirdi, bircə bundan başqa. Hamı şok içindəydi. Şöbə müdiri vəziyyəti görüb çox tutuldu, həyəcanla dedi: “Hidayət müəllim, komanda qalır, təşəkkürlər, Dövlət Komitəsində çox işlər gördüz...”.

Mən çıxış edib cənab Prezidentə minnətdarlığımı bildirdim...

İki gün sonra şöbə müdiri mənə zəng çaldı: “Səfərə gedirəm, bir həftə sonra dönəcəyəm. Siz də yorulubsunuz, bir az dincəlin, tezliklə yeni təyinatınız olar...”

İyunun 5-də isə Prezidentin sərəncamı yayımlandı: “Dövlət orqanlarında uzun illər səmərəli fəaliyyətinə görə AR Prezidentinin təqaüdü verilsin”. Mən Dövlət Komitəsindən ayrılandan beşcə gün sonra. Yəni iş məsələsi birdəfəlik qapandı.

Mehdiyev işini belə düzüb - qoşmuşdu. Ancaq neçə il qabaq məni Milli Ensiklopediyaya yola salmaq istəyəndə Mehdiyevə elə - belə deməmişdim: “Havaxt burdan getsəm, bir həftə şəhəri payi-piyada gəzib dolaşacağam və hamının gözünə düz baxacağam!”. Elə də etdim: tanımadığım adamlar mənə yaxınlaşıb xoş sözlər deyirdilər, hətta sükan arxasında əyləşənlərdən avtomobili saxlayıb “hara lazımdır aparım” - təklifi edənlər də vardı. Buna görə də çalışırdım avtmobil yoluna yaxın olmayım.

Əvvəlcədən nəzərdə tutulmuş “məzuniyyəti” təxirə salmadım. İyun ayının sonlarında xanımım və oğlumla birlikdə Karlovı-Varıya getdik.

Yaşıllıq ağuşunda addımlaya-addımlaya, mineral sulardan içə-içə bir naçar sual içimdə dolanırdı, məni rahat buraxmırdı: bundan sonra nə edəcəyəm? Bəlkə nə qədər Mehdiyev vəzifəsindədir - Azərbaycanda yaşamayım?.

Çalışırdım - xanımım da, oğlum da bunu hiss etməsinlər. Yox, deyəsən bu sual onları da yorurdu, onlar da çalışırdılar - nə düşündüklərini mən hiss etməyim. Müvəqqəti də olsa Mehdiyev vəzifədədir. Prezident təqaüdü alsam da, ölkəmdən kənarda yaşamağıma bəs eləməz. Mənzil, ailə... Bəlkə ailəm də o barədə düşünürdü? Ancaq dediyim kimi düşüncələrimizi mən onlarda gizləyirdim, onlar da -məndən. O vaxtacan 45 il məsul, yüksək vəzifələrdə olmuşdum. Onun 20 ili -Dövlət müşaviri və Dövlət Komitəsinin sədri. Belə yolları keçə bilən çoxlarından fərqli olaraq yalnız maaşım və qonorarımla yaşamışdım. Siyasi və sonralar diplomatik vəzifələrdə işləyəndə isə qonorar cüziləşmişdi... Bunlara görə təəssüflənmirəm, qürur duyuram. Xoşbəxtlikdən ailəm də həmişə belə düşünüb!

Karlovı-Varıda ilk günlər... Bir səhər yenə yaşıllıqlarla, çeşmələrlə görüşmək, bu düşüncələrin ardını yaşamaq üçün otaqdan çıxmaq istəyəndə telefonum zəng çaldı: Prezident Aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov idi. Salamdan - kəlamdan dərhal sonra mətləbə keçdi:

- Cənab Prezident Sizə Qırğız Respublikasına fövqəladə və səlahiyyətli səfir getməyinizi təklif edir.

Eşitdiklərim o qədər gözlənilməz idi - dərhal cavab verməyə... Üç - dörd saniyə keçməmiş əlavə etdi:

- Əgər ürəyinizcə deyilsə, başqa ölkə təklif oluna bilər.

- Mən Azərbaycanın və cənab Prezidentin əsgəriyəm! - dedim - özü hara məsləhət bilirsə, hazıram. Təşəkkür edirəm.

- Mən də təşəkkür edirəm.

Sağollaşdıq.

Nahardan azca keçmiş yenə Novruz müəllimin zəngi gəldi. Bu dəfə fərəhi sanki telefon xəttinə sığmırdı.

- Cənab Prezidentə məruzə etdim. Çox məmnun oldu. Dedi: “Mən elə belə də bilirdim!”. Xarici işlər nazirinə göstəriş verdim ki, aqreman sənədlərini hazırlayıb göndərsinlər.

Prezident məni dekabrın 21-də qəbul etdi. Əlli dörd dəqiqə çəkən görüşümüzdə (mən iki dəfə saatıma baxdım, axı, bilirdim ki Dövlət Başçısının yeni təyin olunan səfirlə söhbəti 15-20 dəqiqədən çox çəkmir) Qırğızıstan, yeni vəzifəm barədə ikicə sadə, cəmisi üç sözdən ibarət cümlə səsləndi. Prezident mən otağa daxil olanda təbəssümlə dedi: “Bəli, Qırğızıstan sizi gözləyir!”. Qəbulun sonlarında isə təəssüflə - “orda səfirlik yoxdur” - söylədi. Vəssalam. Mənim təşəkkürüm, etimadı doğruldacağım vədim beş-altı dəqiqədən çox çəkmədi. Və Prezident mənə qarşı yumşaq desəm, qərəzlərdən, məkrlərdən danışdı, iki dəfə söylədi ki, “kampaniya” demək istəməzdim”(ali mədəniyyətinə görə belə deyirdi, ancaq sözaltı mənası - əsil kampaniya idi, sonsuz qərəzli, nəhayətsiz məkrli! Elə məsələlərdən danışdı ki, heyrətimi gizlətmək çox çətin idi:

davamı növbəti sayımızda



Azərbaycan və Özbəkistanın müvafiq qurumları son illərdə iqtisadi təmasları artırmaq üçün sıx işləyir. Ali Dövlətlərarası Şura, Hökumətlərarası Komissiya və digər strukturlar dövlət və özəl sektorun təmsilçilərinin biznes layihələrinin icrasında əlaqələndirici rol oynamaqdadır. Həm Özbəkistanda, həm də Azərbaycanda ikitərəfli və çoxtərəfli iqtisadi tədbirlərin sayı artmaqdadır.

# Ortaq biznes platforması

## Azərbaycan-Özbəkistan Biznesmenlər Şurası sahibkarlar arasında birgə hədəflərə çatmaqda əlaqələndirici rol oynayacaq

Özbəkistan və Azərbaycan hökumətləri iki ölkənin sahibkarları arasında birbaşa əlaqələrin qurulmasına dəstək vermək, birgə investisiya layihələrini təşviq etmək məqsədilə Biznesmenlər Şurası yaradacaq. Hər iki tərəfin müvafiq qurumları yeni təsisatın qurulması üçün zəruri texniki və hüquqi məsələləri həll etməkdədir. Özbəkistanın Azərbaycandakı səfiri Baxrom Aşrafxanov bildirib ki, Biznesmenlər Şurası biznes nümayəndələri arasında birbaşa qarşılıqlı fəaliyyəti təmin edəcək İşgüzar Şura rolunu oynayacaq. Şura biznes sektorunun üzvlərinin üzləşdiyi texniki çətinliklərin və hüquqi məsələlərin operativ şəkildə həlli, institusional dəstəyin göstərilməsi, sahibkarların biznes planlarının realizasiyası və s. istiqamətlərdə çevik və təsirli addımların atılmasına dəstək verəcək.

B.Aşrafxanovun sözlərinə görə, bunun nəticəsidir ki, iki ölkə arasında iqtisadi-ticari münasibətlərin dinamikası davamlı şəkildə artmaqdadır. Eləcə də qarşılıqlı sərmayə yatırımlarının məbləğində artımlar müşahidə edilməkdədir. Tərəflər arasında müəyyən edilmiş hədəf investisiya müəssisələri və biznes dairələri arasında birgə layihələrin həyata keçirilməsi sayəsində sərmayə paketinin həcmini 10 milyard dollara çatdırmaqdır. Bu prosesdə iri şirkətlər və investisiya korporasiyaları ilə yanaşı, kiçik və orta biznes icmasının da sərmayə təşviqinə cəlb edilməsinə ehtiyac var. Bu baxımdan Biznesmenlər Şurası bu funksiyanı öz üzərinə götürərək ticarət-sənaye palataları və sahibkarlar assosiasiyalarının xətti ilə koordinasiyanı təmin edəcək, investisiya paketinin formalaşdırılmasına töhfə verəcək.

### İnvestisiya Şirkətinin davamçısı

Azərbaycan və Özbəkistan son illərdə ikitərəfli münasibətlərin inkişafı və keyfiyyətcə yeni mərhələyə çatması üçün qarşılıqlı təmasları daha da artırmaqdadır. Ölkələr arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirilməsi birgə əməkdaşlığın gündəliyini daha da genişləndirib və tərəflər sərmayə təşəbbüslərini artırmaq üçün ortaq maliyyə institutları yaratmaqdadır. Tərəflər arasında imzalanan "Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə", "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi", eləcə də digər mühüm sənədlər bu istiqamətdə xüsusi əhəmiyyətə malikdir. Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır.

İki il əvvəl "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında" 2022-ci il 21 iyun tarixli Bəyannaməni və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və mühafizəsi haqqında" Sazişə əsasən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti təsis edilib. Yeni qurum 2023-cü ilin dekabrında Özbəkistanda "Azerbaijan Uzbek Investment" MMC Birgə Müəssisəsi (AUİC) kimi qeydiyyatdan keçib. Qurumun maliyyə portfeli hər iki ölkənin resurs imkanları hesabına formalaşır və iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin maliyyələşməni təmin edəcək. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır. Bu, ilkin maliyyə kapitalıdır və qarşıdakı illərdə layihələrin və iqtisadi prioritetlərə uyğun nizamnamə fondunun artırılması nəzərdə tutulur. Hüquqi şəxs statusuna malik Şirkət müqavilələr bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və öhdəliklər götürmək, məhkəmədə, arbitrajda və münsiflər məhkəməsində iddiaçı və cavabdeh olmaq hüququna malikdir.

### Hədəf sərmayə paketini 10 milyard dollara çatdırmaqdır

2024-cü ildə Daşkənddə fəaliyyətə başlayan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin fəallaşdırılmasını təşviq etməkdədir. Şirkətin strateji fəaliyyət istiqamətləri olduqca genişdir və sərmayələrin təşviqi üçün bütün maliyyə, investisiya, kapital fondları ilə birgə əlaqələndirici missiyanı yerinə yetirmək niyyətindədir. Belə ki, Azərbaycan və Özbəkistan ərazisində, investisiya qoyulan layihələrdə aparıcı sənaye tərəfdaşının olması şərtilə, qarşılıqlı maraq doğuran mövcud və yeni yaradılmış təsərrüfat subyektlərinin nizamnamə kapitalında minoritar payların və səhm paketlərinin, həmçinin həmin subyektlərin istiqrazlarının və digər qiymətli kağızlarının əldə edilməsi, kreditlərin ayrılması və qiymətli kağızların buraxılışı da nəzərdə tutulur ki, bu da şirkətə mühüm maliyyə institutu funksiyasının səlahiyyətlərinin verilməsi deməkdir. Bu qurumun nizamnamə kapitalı layihələrə investisiya qoyulduqca artırılacaq və birgə müəssisə statusunda istehsal, emal, ixracyönümlü sahələrə daha çox dəstək verəcək. Əsas prioritet idxalı əvəz edən və yüksək texnologiyalı məhsul istehsalının təşviqidir ki, bu da hər iki ölkənin strateji maraqlarına uyğundur, çünki yerli istehsal qarşılıqlı mübadilə dövriyyəsinin artırılmasına da töhfə verəcək və başqa dövlətlərdən mal asılılığını azaldacaq.

Yeni təsisatın - Biznesmenlər Şurasının yaradılması İnvestisiya Şirkətinin davamçısı olmaqla, Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlığın artırılmasına töhfə verə bilər. Yeni qurumun fəaliyyətə başladıqda sahibkarlar üçün ortaq iqtisadi platformaya çevriləcək, birgə layihələrin reallaşması və sərmayə hədəflərinə çatmaqda əlaqələndirici rol oynayacaq.

*E.CƏFƏRLİ*

# WUF13 tədbiri ilə əlaqədar vergi güzəştləri tətbiq olunacaq

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Azərbaycanda keçirilməsi ilə əlaqədar vergi güzəştləri nəzərdə tutulur. Bununla bağlı Vergi Məcəlləsinə (VM) dəyişikliklər edilməsi üçün müvafiq təkliflər parlamentə təqdim olunub. Layihə artıq Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılıb və müsbət rəy alıb. Qanun layihəsinə dəyişikliklərə əsasən, WUF13-ün yüksək səviyyədə təşkili zərurətindən irəli gələrək, tədbirlə əlaqədar qeyri-rezident şəxslərə bir sıra vergi azadolmalarının tətbiqi məqsədəuyğun hesab edilir.

### Vergi azadolmaları hansı sahələri əhatə edir?

Yeni vergi azadolmaları hansı istiqamətləri əhatə edəcək:

* WUF13 çərçivəsində malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərin vergidən azad olunması;

* Qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilə əsasında qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri (mənfəət vergisi) üzrə azadolma);

* Qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərin (mənfəət vergisindən azad edilməsi);

* Müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq təsdiqedici sənəd əsasında malların idxalının ƏDV-dən azad olunması

VM-nə dəyişikliklərin parlamentin plenar iclasında yaxın günlərdə müzakirəyə çıxarılaraq qəbul olunması gözlənilir. Bu dəyişikliklər təsdiqləndikdən sonra yuxarıda qeyd etdiyimiz hər bir istiqamət üzrə vergi güzəşt və azadolmaları bir il müddətinə qüvvədə olacaq.

Məlum olduğu kimi, şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb. Bu məqsədlə 2023-cü il dekabrın 22-də "Azərbaycan Respublikası Hökuməti ilə BMT arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş" imzalanıb və qanunla təsdiq edilib.

Bu mötəbər beynəlxalq tədbirin Azərbaycana həvalə edilməsi mühüm hadisə olmaqla bərabər, iqtisadi sektorlar, ələlxüsus da turizm, xidmət, biznes üçün də xüsusi əhəmiyyət kəsb edir.



### Biznes üçün əlavə imkanlar

WUF13-ün yüksək səviyyədə təşkili üçün təşkilat komitəsi ilə yanaşı, infrastruktur, təminat və təchizat, qonaqların yerləşdirmə, tədbirlərin təşkili, xidmət, turizm və digər sahələrin hazırlıqlılığının çevik və etibarlı olması zəruridir. Bu işlər üçün müxtəlif avadanlıqların, mal-material, xammal təchizatlarının, eləcə də xidmət infrastrukturunun əlavə təminatlarının yaradılmasına ehtiyac var. Bütün bunların təminatı daha çox özəl sektorun və rezidentlərin üzərinə düşür. Onlar tədbirin yüksək səviyyədə keçirilməsi üçün tələb olunan avadanlıq, mal və xidmətlərin təqdim edilməsi, işlərin görülməsi və s. fəaliyyətlərə əlavə xərclər çəkməlidir. Bu baxımdan həmin xərclərin icrası zamanı biznesə müəyyən dövlət dəstəyinə ehtiyac yaranır. Hökumət bunu nəzərə alaraq özəl sektor təmsilçilərinin qeyd edilən fəaliyyət sahələrindən əldə etdikləri gəlirləri vergidən azad etməklə onlarda daha böyük stimullar yaratmaq niyyətindədir. Eləcə də WUF13 Forumu zamanı intellektual mülkiyyət və qeyri-maddi aktivlərdən istifadəyə də tələbatlar yaranır. Həmin mülkiyyət üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilələr imzalanmalıdır. Bu isə vergi öhdəlikləri yaradır. Hökumət bu amili də nəzərə alaraq qeyri-rezident hüquqi şəxsləri mənfəət vergisindən azad etməyə qərar verir. Bu baxımdan vergi güzəştlərini sənaye innovasiyasına və texnoloji inkişafa dəstək üçün iqtisadi tətil kimi qiymətləndirmək olar.

Beləliklə, qeyd edilən fəaliyyət sahələrində çalışan sahibkarların Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına hazırlıq dövründə və tədbir müddətində göstərdikləri iş və xidmətlərdən əldə etdikləri gəlirlər vergidən azad olunmaqla, onların dövriyyə imkanlarını yaxşılaşdıracaq.

Azərbaycan hökuməti texnoloji tərəqqi və yeni sənaye quruculuğuna mühüm yer verərək beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir, innovasiyaları ölkəyə gətirir. Bunun nəticəsidir ki, ən mötəbər tədbirlər Bakıya həvalə edilir və ölkəmiz həmin toplantı və sammitlərdə yeni yanaşmalar tətbiq edir. İqtisadi və vergi stimulları da bu tədbirlər çərçivəsində həyata keçirilir. Bu cür təcrübə WUF13 Forumundan əvvəl - 2024-cü ildə COP-29 sammitinin ölkəmizdə keçirilməsi zamanı da tətbiq olunub.

### COP-29-da özünü doğruldan təcrübə

Belə ki, həmin ildə "yaşıl texnologiyalar"dan istifadəyə biznesin marağını artırmaq məqsədilə vergi güzəştləri edilib. Həmin güzəştlərə əsasən, COP29 ilində sahibkarlar tərəfindən təqdim edilən malların satışı və tədarükü, iş və xidmətlərin göstərilməsi 2024-cü il martın 1-dən 9 ay müddətinə gəlir vergisindən azad olundu. Bu, qeyri-rezident fiziki şəxslərin, yəni xarici iş adamlarının həmin fəaliyyət sahələri üzrə əldə etdiyi gəlirlərə görə, nəzərdə tutulan vergi güzəştləri kimi biznesdə xüsusi maraq yaratdı. Eyni zamanda, vergi güzəştləri faktiki olaraq, Azərbaycanda "yaşıl vergi" strategiyasına keçidi sürətləndirdi.

Azərbaycanda müasir şəhərsalma və memarlığın əsas prinsiplərindən biri şəhər mühiti və infrastrukturunun qurulması zamanı ekoloji cəhətdən təmiz, "yaşıl texnologiyalar"a əsaslanan layihələrə daha çox yer verilməsidir. Belə ki, müasir şəhərsalma strategiyasına əsasən, yaşıl, sağlam və ekoşəhərlərə üstünlük verilməsi, "ağıllı və smart şəhərlər"in salınması nəzərdə tutulub. Bu məqsədlə rəqəmsal texnologiyalardan daha geniş istifadə tələb olunur. "Yaşıl və rəqəmsal texnologiyalar"ın tətbiqində isə özəl sektorun, biznesin üzərinə daha çox vəzifə düşür.

Beləliklə, yuxarıda vurğuladıqlarımız nəzərə alınmaqla, WUF13 Forumu çərçivəsində biznesə vergi güzəştlərinin verilməsi şəhərsalmada "yaşıl texnologiyaların" tətbiqini genişləndirməklə, dövlət-biznes əməkdaşlığını möhkəmləndirəcək.

*E.CƏFƏRLİ*

# “Lizinq haqqında” qanun nəyi və necə dəyişəcək?

Mərkəzi Bank (MB) ölkədə lizinq bazarının inkişafı üçün yeni qanun layihəsi hazırlayıb. Layihə lizinq bazarının inkişafı və maliyyələşmə imkanlarının artırılması istiqamətində institusional tədbirlərin bir hissəsini təşkil edir. Belə ki, bank sektorunda əlverişli və məsuliyyətli maliyyə xidmətlərinin genişləndirilməsi yolu ilə lizinq sahəsinin də dayanıqlı inkişafının təmin edilməsi əsas hədəf kimi müəyyən olunub. Bu istiqamətdə bank sektorunun bazar imkanlarının artırılması, bank olmayan kredit təşkilatlarının inkişaf etdirilməsi və onların lizinqin maliyyələşdirilməsində rolunun yüksəldilməsi nəzərdə tutulur. Bu məqsədlə lizinq fəaliyyətinin hüquqi və tənzimləyici çərçivəsinin formalaşdırılması üçün “Lizinq (maliyyə icarəsi) haqqında” qanun layihəsi hazırlanıb və sənəd hazırda müvafiq dövlət qurumları ilə razılaşdırılma mərhələsindədir.

## Vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi

Məlumdur ki, lizinq özündə bank krediti, icarə, investisiya elementlərini cəmləşdirən təsisat, maliyyə bazarının bir elementi, sahibkarlıq fəaliyyəti formasıdır. Lizinq şirkətləri lizinq verənlə lizinq alan arasında maliyyə vasitəçiliyi yerinə yetirir. Şirkətlər sənaye avadanlıqlarının, maşınların, yeni texnologiyaların, istehsal təyinatlı bina və tikililərin istifadəsində kapital və əsas maliyyə mənbəyi kimi çıxış edir. Lizinq mülkiyyət hüququnu tamamilə əldə etmədən aktivlərdən istifadə etməyə imkan verir. Eyni zamanda, lizinq vasitəsilə müxtəlif adavadanlıqları aylıq kredit ödənişləri həyata keçirərək satın almaq mümkündür.

Lizinq fəaliyyətinin genişləndirilməsi üçün hökumət son illərdə bir sıra institusional və iqtisadi təşviq alətlərindən istifadə etməkdədir. Lizinq şirkətlərinə iqtisadi-maliyyə stimullarından biri kimi 2024-cü ildə Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilib. Dəyişikliklər sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində atılan addımlar çərçivəsində tətbiq olunmaqla, maliyyə lizinqi ilə bağlı qanunvericilikdə olan müddəaların təkmilləşdirilməsinə imkan yaradıb. Belə ki, dəyişikliklərə qədər lizinq şirkətləri lizinqə verdikləri aktivləri əldə edərkən ödədikləri ƏDV məbləğlərini əvəzləşdirə bilmədiklərindən vergi məbləği aktivin dəyərinə daxil olurdu. Bu isə aktivi maliyyə lizinqi çərçivəsində əldə edən biznes subyektlərinin ƏDV-ni əvəzləşdirmək imkanını məhdudlaşdırır və kapital qoyuluşu üzrə vergi yükü yaradırdı. Lakin aktivlər bank kreditləri hesabına əldə edildiyi halda, biznes subyektləri həmin aktivlərə görə ödənilən ƏDV məbləğlərini əvəzləşdirə bilirdi və nəticədə maliyyə sektorunda maliyyələşmə alətləri üzrə vergi yükü fərqləri yaranmış olurdu ki, bu da lizinq bazarının rəqabətliliyinə mənfi təsir göstərirdi.





Vergi Məcəlləsində edilən dəyişikliklərdən sonra isə həm lizinq şirkətlərinə, həm də lizinq alan sahibkarlara aktivləri əldə edərkən ödənilmiş ƏDV məbləğlərini əvəzləşdirmə imkanları yaradılıb. Bundan başqa, lizinq alanın maliyyə lizinqi müqaviləsi üzrə hüquq və öhdəliklərini digər şəxsə ötürdüyü halda lizinq verənlə yeni alıcı arasında yaranan münasibətlərin maliyyə lizinqi hesab olunması, əvvəlki müqavilənin davamı sayılması da hüquqi baxımdan təmin olunub. Nəticədə lizinq alətinin təşviqi və bu prosesdə iştirak edəcək subyektlərin bu alətdən daha çox istifadə etməsinə şərait yaradılıb.

Beləliklə, qeyd olunan dəyişikliklər sayəsində lizinq şirkətləri üçün maliyyələşmə alətləri üzrə bərabər vergi rejimi yaradılıb, ƏDV-nin dəyər zənciri üzrə son istehlakçıya ötürülməsi yolu ilə vergi yükü azaldılıb, biznes subyektlərinə ödənilmiş ƏDV-nin əvəzləşdirilməsi mümkün olub. Bu isə lizinq fəaliyyəti sahəsində bütün tərəflər üçün vergi yükünün optimallaşdırılmasını təmin edib.

## Maliyyə resurslarına çıxış üçün yeni imkanlar

Ancaq bütün bunalara baxmayaraq, lizinq bazarın inkişafı və portfeli böyük həcmdə deyil, ÜDM-də lizinqin çəkisi 1 faizdən də aşağıdır. Dövlətin aqrar sahədə dəstəyi sayəsində inkişaf edən lizinq seqmentindən başqa, digərlərinin aktiv lizinq əməliyyatları yetərli hesab oluna bilməz. Maliyyə resurslarının azlığı və maliyyə resurslarına çıxışın zəifliyi lizinq sektorunda müxtəlif kapital alətlərinə əlçatanlığını məhdudlaşdırır. Bir çox ölkələrdə lizin şirkətləri fəal investor kimi səhm buraxır, fond bazarında təmsil olunur. Ölkəmizdə bir neçə şirkət istisna olmaqla, səhm biznesində iştirak edən lizinq icması yoxdur. Lizinq şirkətləri bankların törəmə şirkətləri kimi onlardan pulu alıb lizinq yolu ilə satır və lizinq şərtləri faktiki olaraq kredit şərtlərinə oxşardır, bu isə sahibkarları və lizinq verənin vəziyyətini çətinləşdirir. Bank olmayan kredit təşkilatları bir çox hallarda əmlak və nəqliyyat lizinqinə maliyyə yatırmağa risk edir. Bundan başqa, lizinq fəaliyyəti üçün lisenziya sistemi və minimum kapital tələbi də yüngülləşdirilməlidir. Lizinq fəaliyyəti göstərən sahibkarlıq subyektinin nizamnamə kapitalı, maliyyə mənbələri nəzərə alınmalıdır.

**Ölkəmizdə bir neçə şirkət istisna olmaqla, səhm biznesində iştirak edən lizinq icması yoxdur. Lizinq şirkətləri bankların törəmə şirkətləri kimi onlardan pulu alıb lizinq yolu ilə satır və lizinq şərtləri faktiki olaraq kredit şərtlərinə oxşardır, bu isə sahibkarları və lizinq verənin vəziyyətini çətinləşdirir. Bank olmayan kredit təşkilatları bir çox hallarda əmlak və nəqliyyat lizinqinə maliyyə yatırmağa risk edir**

Ümumilikdə, lizinq və digər maliyyə alətlərinin sayının artırılması xüsusilə də istehsal və biznes sahələrinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Hazırda lizinq bazarının portfeli çox azdır, ümumi kapital qoyuluşu zəifdir. Ona görə də bu məsələyə daha əhatəli və hərtərəfli yanaşma ilə dəstək verilməsi məqsədəuyğundur. Həmçinin bazarın inkişafı üçün beynəlxalq lizinq şirkətlərinin Azərbaycana cəlb olunmasına da ehtiyac var. Hesab etmək olar ki, “Lizinq haqqında” qanun layihəsinə yeni dəyişikliklər bank sektorunun maliyyələşdirmədə və bazar imkanlarının genişlənməsində rolunu artıracaq, nəticədə maliyyə əlçatanlığı yüksələcək.

*E.CƏFƏRLİ*

# Paris sülh siyasətinə qarşı

Fransa rəsmiləri üzdə ötən il Vaşinqtonda əldə olunan mühüm razılaşmalardan sonra Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində başlayan yeni mərhələni alqışladıqlarını bildirsələr də, rəsmi Paris sülh siyasəti ilə adekvat olmayan mövqe sergiləyir. Fransa Milli Assambleyasının separatçı rejimin nümayəndələrinin “dərhal və qeyd-şərtsiz azad olunması” ilə bağlı qəbul etdiyi qətnamə bunun əyani təsdiqidir.

Fransa parlamentinin aşağı palatasının saytında yerləşdirilən məlumata əsasən, “sənəd”in lehinə 183 üzv səs verib, əleyhinə isə səs verən olmayıb. Qətnaməni Fransa-Ermənistan Dostluq Qrupu adından parlamentin üzvü Loran Vaukiez təqdim edib və bir sıra parlamentarilər onu dəstəkləyiblər. Parlamentdə “sənəd”in yekdilliklə qəbul edilməsi burada ifadə olunan mövqenin təsadüfi deyil, sistemli və siyasi sifariş xarakteri daşıdığını göstərir.

## Qətnamənin qərəzli mahiyyəti

Fransa parlamenti keçmiş Qarabağ probleminin bütün tarixi ərzində, o cümlədən 44 günlük Vətən müharibəsi günlərində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı ilə bağlı dəfələrlə belə reallıqla heç bir əlaqəsi olmayan müzakirələr açıb və çoxsaylı absurd qətnamələr qəbul edib. Əslində, bunlar kağız parçasından başqa bir şey deyil. Subyektivcəsinə qəbul olunan və heç bir faktın doğru-düzgün öz əksini tapmadığı qətnamələri Azərbaycan hüquqi əsası olmayan kağız parçaları kimi dəyərləndirib. Belə “kağız parçaları” qəbul edildiyi andan öz yerlərini yalnız toz basmış arxivlərdə tapırlar.

Bəhs olunan son qətnamə də başdan ayağa qərəzli məzmuna malikdir. “Sənəddə” bəhs olunan şəxslər zamanında Azərbaycana qarşı dövləti cinayətlər törədiblər və onların əli dinc azərbaycanlıların qanına batıb. Keçmiş Dağlıq Qarabağ probleminin otuz ildən artıq davam edən tarixi boyunca Azərbaycan humanitar fəlakətlə üzləşib. Xocalı şəhəri bir gecənin içində yerlə-yeksan olub, bir milyondan artıq insan onilliklər boyunca çadırlarda, vaqonlarda, uyğunlaşdırılmış binalarda yaşayıblar. Həmçinin işğal altına düşən ərazilərdə qalan zəngin mədəni irsə böyük ziyan dəyib - onlar dağıdılıb, qiymətli eksponatlar oğurlanıb, Bütün bu qəbildən olan çirkin əməllərin arxasında isə Ermənistan hakimiyyəti və rəsmi İrəvanın onilliklər ərzində dəstəklədiyi separatçılar dayanıblar. Separatçılar Azərbaycan Konstitusiyasını pozmaqla Qarabağda qeyri-qanuni “dövlət” formalaşdırıblar və Azərbaycanın unitar dövlət quruluşuna qarşı çıxıblar. Onlar 44 günlük müharibədən əvvəl yeni ərazi iddialarını dilə gətirir və Bakıya gələcəklərini bildirirdilər. Separatçılar Bakıya gəldilər. ancaq məğlub durumda, qolları qandallı şəkildə gəldilər.

Fransa parlamentində qəbul olunan qətnaməyə münasibət bildirən Milli Məclisin deputatı Sevinc Fətəliyeva bildirib ki, bütün bunlar yaxın tarixin reallığıdır. Deputat vurğulayıb ki, Fransa parlamentariləri bu reallıqları unudub qərəzə uymamalı idilər. “Sənəd”in qərəzli mahiyyətinə diqqət çəkən Sevinc Fətəliyeva deyib: “Fransa parlamentinə ikili standartlar ruhu hakim kəsilib, desək, yanılmarıq. Xatırladaq ki, burada bu gündək etnik təmizləməyə məruz qalan və fundamental insan hüquqları pozulan bir milyon azərbaycanlı haqqında bir dəfə də olsun dinləmə keçirməyib və heç bir hansı qətnamə qəbul etməyib. Bu isə Fransa qanunverici orqanının tam qərəzli mövqe tutduğunu açıq şəkildə nümayiş etdirir.

Fransa parlamentində yeni qəbul olunan “sənəd”də Azərbaycanın suveren hüquqlarının, ərazi bütövlüyünün və milli qanunvericiliyinin tam şəkildə iqnor edilməsi xüsusilə diqqət çəkir. Azərbaycanın məhkəmə orqanları tərəfindən müharibə cinayətləri, separatçılıq, terror fəaliyyəti və insanlıq əleyhinə cinayətlərdə ittiham olunan şəxslər “erməni əsirləri” kimi təqdim olunur. Bu yanaşma beynəlxalq hüququn fundamental prinsiplərinə - dövlətlərin daxili işlərinə qarışmamaq və məhkəmə müstəqilliyinə hörmət prinsiplərinə ziddir”.

Azərbaycan parlamentinin üzvü qərəzli qətnamədə”artsax” terminindən istifadə etməsinə xüsussi diqqət çəkib. S.Fətəliyeva bunu açıq aşkar siyasi manipulyasiya kimi dəyərləndirib. Tarixdə belə bir termin olmayıb. Bu, “dənizdən-dənizə Ermənistan” xülyasına uyan erməni separatçılarının uydurması idi və artıq tarixin zibilliyinə atılıb.



## Ermənidən artıq ermənilik

“Bu günlərdə Fransa parlamentində Azərbaycanla bağlı qəbul olunan qətnamə qurumun beynəlxalq müstəvidə cərəyan edən proseslərin arxasında süründüyünü bir daha ortaya qoyur. Fransa parlamentində erməni lobbisinin təsirləri o qədər güclüdür ki, qurumu təmsil edən parlamentarilər Azərbaycanla Ermənistan arasındakı tənzimləmə prosesinin hazırkı mərhələsində nələrin baş verdiyini belə qəbul etmək istəmirlər. 30 il ərzində ədalətli mövqeyindən, haqq mübarizəsindən geri çəkilməyən güclü Azərbaycan 44 günlük müharibənin və separatçıların sonunu gətirən 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq regionda yeni reallıqlar yaradıb. Vaşinqton görüşü, Davos Forumu bir daha təsdiqlədi ki, dünya, əksər güc mərkəzləri Azərbaycanın tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanmaqla yaratdığı reallıqları və sülh gündəliyini qəbul edirlər. Vaşinqtonda yekun sülh sazişinin paraflanması ilə Azərbaycan-Ermənistan münasibətlərində yeni bir səhifə açılıb”

Bu fikirləri isə bəhs olunaan “sənəd”ə münasibət bildirən Milli Məclisin deputatı Kamran Bayramov ifadə edib. Onun sözlərinə görə indi Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxındır. Həmçinin Azərbaycanla Ermənistan arasında həm dövlətlər, həm də cəmiyyətlər səviyyəsində etimad quruculuğu prosesi başlayıb. Fransa parlamentariləri ədalətlidirlərsə, obyektivdirlərsə hər iki tərəf, hər iki xalq üçün əhəmiyyətli olan və dünya tərəfindən təqdir olunan sülh prosesinə töhfə verməyə çalışmalıdırlar. “Onlara vacib bir məqamı xatırlatmaq istərdik. İndi revanşistlərin kiçik bir qrupu istisna olmaqla Ermənistanın özündə belə separatçıları yada salan yoxdur. Qarabağ məsələsi gündəlikdən çıxarılıb. Hazırda Bakı məhkəməsində separatçılara ədalətli hökm oxunur. Belə bir vəziyyətdə Fransadan olan parlamentarilərə nə düşüb ki, reallığı görməzdən gəlir və hazırda Ermənistanda nüfuzu palaz kimi yerlə bir olan kilsədən gələn tezisləri təkrarlayırlar? Bunun bir adı var: Ermənidən artıq ermənilik etmək”, - deyə Kamran Bayramov vurğulayıb.

*Mübariz FEYİZLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







# Qışın ortasında bir nağıl!

## Qəbələ Festival günlərində...

Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını sənətsevərlərin, Beynəlxalq Musiqi Festivalı iştirakçılarının üzünə açır. Dünən - fevralın 5-dən II Beynəlxalq “Qış nağılı” Musiqi Festivalı başlayıb. Fevralın 8-dək davam edəcək festival günlərində Qəbələ sadəcə bir turizm məkanı yox, yaşayan və nəfəs alan bir səhnəyə çevriləcək.

Festivalın əsas dəyəri onun çoxşaxəliliyindədir. Açıq hava konsertləri, milli və müasir musiqi nümunələri, xalq rəqsləri sanki qışın soyuğunu unutdurur. Eyni zamanda, yerli sənətkarların təqdimatları Azərbaycan mədəniyyətinin incə detallarını qonaqlara tanıdır. Festival Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və “Gilan”ın dəstəyi ilə keçirilir.

### 4 gün ərzində...

2009-cu ildən yay mövsümündə keçirilən Qəbələ Musiqi Festivalı artıq ikinci ildir ki, qışda da təşkil edilir. Festivalın keçirildiyi 4 gün ərzində Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində izləyicilərə rəngarəng proqram təqdim edilir. Müxtəlif musiqi zövqlərinə uyğun konsertlər olacaq: vokal, kamera instrumental musiqi axşamları, solo çıxışlar, flamenko-caz, Azərbaycan-İspaniya, Bakı-Neapol kimi musiqi gecələri soyuq qış fəslini rəngləndirir.

“Qış nağılı”nın birinci günü dahi bəstəkar Qara Qarayevin musiqi irsinə həsr olunub. Bu gün - fevralın 6-da isə festivalın təntənəli açılışı olacaq. Çıxış edənlər: Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, Əməkdar artist Afaq Abbasova (soprano), Aytac Şıxəlizadə (mezzo-soprano), Azər Zadə (tenor), Mahir Tağızadə (bariton). Həmin gecə Cakomo Puççini, Coakino Rossini, Cüzeppe Verdi, Frans Leqar, Musa Mirzəyev və digər Azərbaycan və dünya bəstəkarlarının sevilən əsərlərindən ibarət konsert proqramı təqdim olunacaq.

### Mədəniyyətlərarası dialoqa mühüm töhfə kimi

Qəbələ festivalı musiqi bayramı olmaqla yanaşı, həm də mədəniyyətlərarası dialoqa mühüm töhfə kimi dəyərləndirilə bilər. Budəfəki festival da bu mənada istisna deyil. Belə ki, fevralın 7-də Qəbələdə Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən “Bakı-Neapol: Musiqi Körpüsü” kamera musiqi axşamı keçiriləcək. İzləyicilər Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini dinləyəcəklər.

Fevralın 8-də isə “Qış nağılı” Beynəlxalq Musiqi Festivalının bağlanışı olacaq. “Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi” adlı flamenko-caz musiqi gecəsində İspaniyadan dəvət alan ifaçı və rəqqaslar səhnəyə çıxacaq. Beləliklə, 4 gün ərzində Qəbələ növbəti dəfə musiqisevərlərə unudulmaz “Qış nağılı” bəxş edəcək.

### “Musiqinin gücü o qədər qüdrətli və sərhədsizdir ki...”

Mədəniyyətşünas-alim Timuçin Əfəndiyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bu kimi festivalların keçirilməsi ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir: “Xarici dövlətlərdən təşrif buyuran qonaqlar, festival iştirakçıları ölkəmizin mədəniyyəti, incəsənəti ilə birbaşa tanış olurlar. Musiqinin gücü o qədər qüdrətli və sərhədsizdir ki, bu festivalda dünyanın müxtəlif ölkələrindən gələn məşhur solistlər və ansamblların ifası ilə mənəvi yaxınlığımızı hiss edirik. Festivalın əsas məqsədi də bundan ibarətdir.

Hər zaman Qəbələ şəhərinə dünyanın bir çox ölkələrindən səyyahlar, tarixçilər, alimlər, mədəniyyət xadimləri səyahət edir, buranın füsunkar təbiətinə valeh olurlar. 2009-cu ildən ənənəvi olaraq keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı hər il dünyanın müxtəlif yerlərindən istedadlı musiqiçiləri bir məkanda birləşdirir və tamaşaçılara yüksək zövqlü və peşəkar ifalar bəxş edir. Festival bu il də tamaşaçılara “Qış nağılı” əhvali-ruhiyyəsi yaşadacaq”.

***Yeganə BAYRAMOVA***

# Yeni laboratoriya yaradıldı

## İnformasiya təhlükəsizliyi ilə bağlı...

Rəqəmsallaşmanın sürətləndiyi, texnologiyaların bütün sahələrə nüfuz etdiyi bir dövrdə informasiya təhlükəsizliyi ilə bağlı labarotoriyaların yaradılması həm təhsil, həm də praktiki hazırlıq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu laboratoriyanın açılması ölkəmizdə kibertəhlükəsizlik sahəsinin inkişafı baxımından da mühüm addımdır.

Fevralın 3-də Bakı Ali Neft Məktəbində (BANM) “İnformasiya Təhlükəsizliyi Testləri” laboratoriyasının açılışı olub. Bu laboratoriya tələbələrə informasiya təhlükəsizliyi üzrə nəzəri biliklərini real ssenarilər üzərində sınaqdan keçirmək imkanı yaradır. Burada kibertəhlükələrin aşkarlanması və müdafiə mexanizmlərinin qurulması kimi vacib bacarıqlar praktiki mühitdə öyrədilir. Bu isə məzunların əmək bazarına daha hazırlıqlı olmasına şərait yaradır.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


### “Rəqəmsal sübut anlayışı tam hüquqi status əldə edəcək”

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Milli Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov bildirib ki, Azərbaycanda yaxın vaxtlarda rəqəmsal sübut anlayışı tam hüquqi status əldə edəcək. Onun sözlərinə görə, DTX rəqəmsal sübutların tanınması ilə bağlı Cinayət-Prosessual Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı təşəbbüs irəli sürüb: “Sənəd Milli Məclisə baxılması üçün təqdim olunub. İnanırıq ki, mətbuatdan da izlədiyiniz kimi bütün cinayətlərin texniki izlərinin həm aparat təminatlarında, avadanlıqlarda, eyni zamanda, proqramlarda, şəbəkələrdə, bulud texnologiyalarında izlənməsi və onların hüquqi statusu artıq təmin olunacaq”.

D. Rüstəmov qeyd edib ki, son dövrlər texnologiya çox dinamik sürət götürüb: “Süni intellektin də rəqəmsal mühitə töhfələri həddindən artıq yüksəkdir. Hər gün biz kontentlərin həm təhrifini, həm də avtomatlaşdırılmasındakı sürətləri, yəni bir neçə, bəlkə də illərə başa gələcək hesablama nəticələrini bir saniyədə, yaxud bir neçə dəqiqədə əldə edə biləcəyimizi görürük”.

DTX rəsmisi yeni yaradılan laboratoriyada yaxın vaxtlarda Azərbaycanda istehsal olunan proqram təminatlarının, eləcə də aparat təminatlarının testlərinin keçiriləcəyinə, zəiflik və boşluqların aşkar ediləcəyinə ümidini ifadə edib: “Burada o qədər sürətli tədqiqatlar aparmalıyıq ki, bizim rəqəmsal inkişaf tendensiyasını izləmək mümkün olsun”.



### “Laboratoriya tələbələr üçün unikal imkanlar yaradacaq”

Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımovun sözlərinə görə, hazırda ən yüksək bal toplayan abituriyentlər bir çox hallarda məhz kibertəhlükəsizlik ixtisasını seçirlər: “Azərbaycanda tələbələrin rəqəmsal ixtisaslara, xüsusilə də kibertəhlükəsizlik sahəsinə artan marağı ali təhsil müəssisələri üçün ciddi çağırış yaradır.

Bu gün açılan laboratoriya tələbələr üçün unikal imkanlar yaradacaq. O, həm praktik, həm də təlim-tədris laboratoriyası kimi fəaliyyət göstərəcək və ən sürətli internetlə təmin olunacaq. Laboratoriyanın unikallığı ondan ibarətdir ki, o, bir növ Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin bir şöbəsi kimi fəaliyyət göstərəcək. Bu, dövlət-istehsalat-universitet əməkdaşlığının bariz nümunəsidir. İstehsalat artıq kənarda deyil, ali təhsil müəssisəsinin daxilindədir. Bu isə çox mühüm fərqlilikdir”.

Rektor qeyd edib ki, Azərbaycanda rəqəmsal sahədə həm iri investisiya layihələri həyata keçirilir, həm də dövlət qurumları bu prosesdə yüksək maraq göstərir: “Belə mərkəzlərin yaradılması ilə yanaşı, orada çalışacaq ixtisaslı kadrlara da ehtiyac var və bu mütəxəssislər məhz BANM-də hazırlanır. Bu gün açılan laboratoriya kibertəhlükəsizlik ixtisasının formalaşması və inkişafı baxımından əlamətdar hadisədir. Tələbələrimiz bu laboratoriyaların verdiyi imkanlar sayəsində daha da irəli gedəcəklər”.

### “Azərbaycan regionun kibertəhlükəsizlik mərkəzinə çevrilir”

Rumıniyanın İnformatika üzrə Milli Tədqiqat və İnkişaf İnstitutunun (ICI Buxarest) elmi direktoru Karmen Elena Çirnu bildirib ki, Azərbaycanın artan rolu kibertəhlükəsizlik məsələlərini daha da aktuallaşdırır: “Azərbaycan təkcə enerji istehsalçısı deyil, eyni zamanda regionun enerji və bağlantı mərkəzinə çevrilir. Sistemlər daha mürəkkəb və bir-biri ilə inteqrasiya olunmuş olduqca, onların qorunması da strateji əhəmiyyət kəsb edir. Azərbaycan regionda enerji və rəqəmsal bağlantı baxımından strateji mövqeyini gücləndirir, ölkə tədricən regionun əsas enerji, kommunikasiya və kibertəhlükəsizlik mərkəzlərindən birinə çevrilir”.

K. Çirnu bildirib ki, enerji, nəqliyyat və rabitə kimi kritik infrastrukturların rəqəmsallaşması yeni imkanlarla yanaşı, əlavə risklər də yaradır: “Bu səbəbdən kibertəhlükəsizlik yalnız texniki məsələ deyil, milli təhlükəsizlik və iqtisadi sabitlik məsələsidir. Bu istiqamətdə praktiki təlimlərin və simulyasiya mühitlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır”.

O, əlavə edib ki, universitetlərdə yaradılan müasir laboratoriyalar və beynəlxalq əməkdaşlıq layihələri ölkədə peşəkar kadr hazırlığını sürətləndirəcək və Azərbaycanın regional kibertəhlükəsizlik mərkəzi kimi mövqeyini gücləndirəcək.

***Yeganə***

# BOK gələcək Qış Olimpiya Oyunlarının vaxtını dəyişdirə bilər

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Kirsti Koventri iqlim dəyişikliyi səbəbindən gələcək Qış Olimpiya və Paralimpiya Oyunlarının cədvəlinin bir ay geri çəkilə biləcəyini bildirib.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, 100-dən çox BOK üzvü Koventrinin proqramı çərçivəsində “Gələcəyə hazırlıq” adlı son danışıqlar mərhələsi üçün bir araya gəlib. BOK prezidenti mətbuat konfransında bildirib: “Gələcək Qış Olimpiya və Paralimpiya Oyunlarının planlaşdırılması üçün vaxt cədvəlini yenidən nəzərdən keçirə bilərik. Oyunların optimal vaxtını müəyyən etsək, bu, bir həll yolu ola bilər”.



Qeyd etmək lazımdır ki, Qış Oyunları ənənəvi olaraq fevral ayında keçirilir. AP-nin məlumatına görə, mümkün dəyişiklik qar örtüyünün və yarışların sabitliyini təhdid edən isti hava şəraiti ilə əlaqədardır.

İlkin məlumatlara görə, 2030-cu ildə Fransa Alp dağlarında Olimpiya Oyunlarının fevralın 1-17-də, 2034-cü ildə ABŞ-ın Yuta ştatında Olimpiya Oyunlarının isə fevralın 10-26-da keçiriləcəyi elan edilib. Lakin iqlim dəyişikliyi ilə əlaqədar gələcək Qış Olimpiya Oyunlarının yanvar ayında, Paralimpiya Qış Oyunlarının isə fevral ayında keçirilməsi ehtimalı nəzərdən keçirilir.

Eyni zamanda, yarışların yanvar ayında keçirilməsi logistika çətinlikləri yarada bilər. Bu, xizək və snoubord üzrə Dünya Kuboku yarışlarının və tədbirlərinin cədvəlini pozacaq. Bundan əlavə, Oyunların yanvar ayında keçirilməsi, həmin dövrdə ABŞ-da tam gücü ilə davam edən NFL və NBA-nın müntəzəm mövsümləri səbəbindən televiziya izləyiciləri üçün rəqabət yarada bilər.

BOK Koventrinin sələfi Tomas Baxın rəhbərliyi altında da iqlim dəyişikliyinin gələcək məkanların tapılmasında çətinliklər yaratdığını qəbul edib. Olimpiya icmalının nəticələri və 2030-cu il Qış Olimpiya Oyunları üçün Fransadakı Alp dağlarına yeni idman növləri və tədbirlərin əlavə edilib-edilməməsi barədə qərar qəbul etmək məqsədilə iyun ayında Komitənin üzvlərinin yenidən görüşməsi planlaşdırılır.

Xatırladaq ki, Qış Olimpiya Oyunları 6-22 fevral tarixlərində İtaliyanın Milan və Kortina d’Ampezzo şəhərlərində keçiriləcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4683**
**Sifariş: 179**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova